*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

26 yanvar 2018-ci il № 5-8 (9191) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymәti 50 qəpik

## BU SAYIMIZDA


### 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİ BÖYÜK EHTİRAMLA YAD EDİLDİ



*Yanvarın 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.*

Əvvəlcə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səh. 2

### DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ 43,7 FAİZ ARTIB



*Dəniz nəqliyyatı ilə 2017-ci ilin yanvar-dekabr ayında daşınmış yüklərin həcmi 8344,6 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 43,7 faiz artıb. Yüklərin 48,7 faizini neft yükləri təşkil edib.*

Səh. 3

### AXDG-DƏ ƏTRAF MÜHİTƏ ZƏRƏRİN VURULMAMASI ÜÇÜN BÜTÜN QABAQLAYICI TƏDBİRLƏR GÖRÜLÜR



*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi gəmilərinin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan neftli şlamların, işlənmiş yağların, digər maye və bərk tullantıların su mənbələrinə, qrunta və havaya ekoloji mənfi təsirlərinin minimuma endirilməsini daim diqqət mərkəzində saxlayır.*

Səh. 4

### GƏMİÇİLİYİN ELEKTRON BİLET XİDMƏTİNDƏN İSTİFADƏ RAHAT VƏ SƏRFƏLİDİR




*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC müştəriləri elektron bilet xidmətindən istifadəyə dəvət edir.*

Səh. 5

### "MÜƏSSİSƏLƏR ÖZ ƏMƏKDAŞLARINA TİBBİ XİDMƏTİN GÖSTƏRİLMƏSİNİ YA BİRBAŞA, YA DA TİBBİ SIĞORTA TƏŞKİLATLARI VASİTƏSİLƏ HƏYATA KEÇİRƏ BİLƏRLƏR"



*Ən vacib sığorta insan həyatının sığortalanmasıdır. Məhz buna görə dövlət tərəfindən icbari tibbi sığortanın tətbiqi üçün praktiki struktur formalaşdırılıb.*

Səh. 6

### 2018 FORMULA 1 AZƏRBAYCAN QRAN PRİ YARIŞI İLƏ ƏLAQƏDAR VİZA PROSEDURLARI SADƏLƏŞDİRİLƏCƏK



*Prezident İlham Əliyev 2018 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.*

Səh. 8


# 1918-Cİ İL AZƏRBAYCANLILARIN SOYQIRIMININ 100 İLLİYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI



Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 18 yanvar 2018-ci il.

### AZƏRBAYCAN RESPUBLİKASINDA NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR SAHƏSİNDƏ İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI BƏZİ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetməni təkmilləşdirmək və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası əsasında Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi yaradılsın.

3. Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası əsasında Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi yaradılsın.

4. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

5. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının işçilərinin say həddi 190 ştat vahidi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Aparatının və regional bölmələrinin işçilərinin say həddi 145 ştat vahidi, o cümlədən Xidmətin Aparatının işçilərinin say həddi 100 ştat vahidi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin işçilərinin say həddi 65 ştat vahidi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin işçilərinin say həddi 48 ştat vahidi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin işçilərinin say həddi 18 ştat vahidi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun işçilərinin say həddi 12 ştat vahidi müəyyən edilsin.

6. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının tabeliyində olan Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi və Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxs statusu ilə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin tabeliyinə verilsin.

7. Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində olan Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi publik hüquqi şəxs Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyinə verilsin.

8. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktorlarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

9. "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 286; 2006, № 11, maddə 945; 2007, № 6, maddə 601; 2008, № 8, maddə 719, № 11, maddələr 969, 970; 2009, № 2, maddə 64, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2014, № 10, maddə 1186, № 12, maddə 1578; 2016, № 3, maddə 468, № 4, maddə 660; 2017, №1, maddə 59) 1-ci hissəsi ləğv edilsin.

10. "Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanının ləğv edilməsi haqqında" 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 635; 2016, № 6, maddə 1057, № 8, maddə 1384; 2017, № 5, maddə 844) 1-ci, 2-ci və 3-cü hissələri ləğv edilsin.

11. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

11.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

11.3. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təklifləri əsasında onun strukturuna daxil olmayan tabeliyində olan qurumların siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

11.4. bu Fərmanın 6-cı hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələrini və strukturlarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

11.5. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin əsasnamələrinin layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

11.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

11.7. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının, Azərbaycan Respublikasının Mülki Aviasiya Administrasiyasının və onların tabeliyində olan qurumların balanslarındakı əmlakın, müvafiq olaraq, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin və onların tabeliyində olan qurumların balanslarına verilməsini iki ay müddətində təmin etsin;

11.8. Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Azərbaycan Respublikasının Mülki Aviasiya Administrasiyası üçün nəzərdə tutulmuş vəsaitin, müvafiq olaraq, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinə və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinə ayrılması ilə əlaqədar tədbirlər görsün;

11.9. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

12. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 12 yanvar 2018-ci il.

# 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİ BÖYÜK EHTİRAMLA YAD EDİLDİ

**...20 YANVAR FACİƏSİ ŞƏHİDLƏRİNİN AZƏRBAYCAN TARİXİNDƏ XÜSUSİ YERİ VAR... ONLAR HEÇ BİR VURUŞA GİRMƏDƏN ÖZ VƏTƏNİNİN, XALQININ AZADLIĞI YOLUNDA ŞƏHİD OLMUŞLAR.**

**...EYNİ ZAMANDA ONU QEYD ETMƏK LAZIMDIR Kİ, O QANLI YANVAR GÜNÜ XALQIMIZ ÖZ ƏZİZ VƏTƏNDAŞLARINI İTİRSƏ DƏ, ÖZ NAMUSUNU, ŞƏRƏFİNİ QORUYA BİLMİŞDİR. XALQIMIZ SÜBUT ETMİŞDİR Kİ, ONUN İRADƏSİNİ QIRMAQ OLMAZ.**

*HEYDƏR ƏLİYEV,*
*ÜMUMMİLLİ LİDER*

*20 YANVAR GÜNÜ BİZİM BÖYÜK FACİƏMİZDİR, ANCAQ EYNİ ZAMANDA AZƏRBAYCAN TARİXİNİN QƏHRƏMANLIQ SƏHİFƏSİDİR. AZƏRBAYCAN XALQI ÖZ İRADƏSİNİ GÖSTƏRDİ. O GÜNDƏN KEÇƏN MÜDDƏT ƏRZİNDƏ AZƏRBAYCAN DEMƏK OLAR Kİ, TAMAMİLƏ YENİ MƏRHƏLƏYƏ QƏDƏM QOYDU...*

*İLHAM ƏLİYEV,*
*AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ*

## İMPERİYA ORDUSU İLƏ QEYRİ-BƏRABƏR MÜBARİZƏYƏ QALXMIŞ DƏNİZÇİLƏRİMİZ 20 YANVARDAN SONRA BAŞLAMIŞ KÜTLƏVİ REPRESSİYALARDAN DA ƏZİYYƏT ÇƏKİBLƏR

***Yanvarın 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev bildirib ki, 1990-cı ilin 20 yanvar günü Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq təkcə faciə deyil. Bu tarix həm də Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir gündür.

Gəmiçiliyin rəhbəri qeyd edib ki, 20 Yanvar faciəsi xalqı daha da birləşdirib, onun yenilməzliyini, Vətənə, torpağa sədaqətini, azadlığa qovuşmaq istəyini bütün dünyaya nümayiş etdirib.

Rauf Vəliyev başımıza gətirilən müsibətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Ulu Öndər Heydər Əliyevin atdığı qətiyyətli addımlardan da ətraflı söz açıb. Diqqətə çatdırıb ki, Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən bir gün sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirib, qoşunların Bakıdan çıxarılmasını tələb edib.

Gəmiçiliyin rəhbəri 20 Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymətin verilməsinin də Ulu Öndər Heydər Əliyevin adıyla bağlı olduğunu diqqətə çatdırıb. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailə üzvlərinə kömək üçün imzaladığı sənədlər isə Ümummilli liderin bu insanların xatirəsinə nə qədər böyük ehtiram bəslədiyinin sübutudur.

Rauf Vəliyev Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin də Azərbaycanın müstəqilliyi uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə və sağlamlıqlarını itirmiş şəxslərə xüsusi qayğı ilə yanaşdığını vurğulayıb. Onun sözlərinə görə, bu qədirbilənlik xalqımızda qələbə əzmini gücləndirir. Bu qələbəyə həm də Azərbaycanın bugünkü hərtərəfli uğurları, bütün dünyada gündən-günə artan nüfuzu, dövlətimizin başçısı, Ali Baş Komandan, Prezident İlham Əliyevin bu istiqamətdə qətiyyətli addımları da zəmanət verir.

Gəmiçiliyin rəhbəri onu da qeyd edib ki, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemləri Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi, həyata keçirdiyi layihələr, xeyirxahlıq missiyası ilə nəinki ölkəmizdə, bütün dünyada tanınan Heydər Əliyev Fondunun da hər zaman diqqət mərkəzindədir. Belə ki, Heydər Əliyev Fondu 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, faciə qurbanlarının ailələrinin problemlərinin həlli, sağlamlığının bərpası istiqamətində mühüm işlər görür.














Rauf Vəliyev xalqımız üçün o ağır günlərdə dənizçilərin göstərdiyi fədakarlıq və qəhrəmanlıqlardan da danışıb. Bildirib ki, dənizçilər sovet hərbçilərinin təcavüzünə qətiyyətlə sinə gərməyi, birlik nümayiş etdirməyi bacarıblar. Həyatlarını riskə atıb, Vətən uğrunda ölümlərini gözə alıblar.

Sonra Azərbaycan Respublikası Milli Məclisinin deputatları Qənirə Paşayeva, Aydın Mirzəzadə və "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış ediblər. Onlar keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi təcavüzün insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu vurğulayıblar. Qeyd ediblər ki, 1990-cı ilin yanvar hadisələri nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi.

Daha sonra qanlı yanvar hadisələrinin canlı şahidi – veteran dənizçi Ağalar İbrahimov faciəmizi dünya ictimaiyyətinə çatdırmağa, sovet imperiyasının törətdiyi qırğın və vəhşiliyin qarşısını almağa çalışan həmkarlarının şücaətindən və qəhrəmanlığından iftixarla danışıb. Bildirib ki, o günlər dənizçilər bütün dünyanın diqqətini Bakıdakı qanlı faciəyə yönəltmək üçün gəmilərimizdən hər saat "SOS" siqnalı verirdilər. Bununla da qəhrəman dənizçilər həyatlarını riskə ataraq Bakı buxtasında imperiya ordusu ilə qeyri-bərabər mübarizəyə qalxmışdılar. Həmin dövrdə əksər gəmilərimiz ciddi zədə aldı, bəzi gəmilərdə mindən çox güllə, mərmi izləri vardı.

Dənizçilərimiz Qanlı Yanvardan sonra başlamış kütləvi repressiyalardan da əziyyət çəkiblər. Həbs edilən 40-a yaxın dənizçi işgəncələrə məruz qalıb.

Sonda tədbir iştirakçıları 20 Yanvar faciəsi günlərində böyük şücaət göstərən və xalqımızın haqq səsini öz həmkarlarının köməyi ilə dünya ictimaiyyətinə çatdıran "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti dənizçilərinin qəhrəmanlığına həsr olunan "Azadlıq carçıları" sənədli filminə baxıblar.

# "AZADLIQ CARÇILARI"NA BAXMAĞA DƏYƏR

***"Azadlıq carçıları". "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti dənizçilərinin 28 il əvvəl 20 Yanvar faciəsi günlərində göstərdikləri böyük şücaət və qəhrəmanlığından bəhs edən sənədli film belə adlanır.***




Filmdən bəlli olur ki, sovet hərbi gəmilərinin hərəkətinə yol verməmək üçün Bakı buxtasına gedən yolu kəsən Azərbaycan dənizçiləri bütün xəbərdarlıqlara və hədələrə baxmayaraq bir addım belə, geri çəkilmirlər.

"Sabit Orucov" gəmisində qərargah və 7 kapitandan ibarət Kapitanlar Şurası yaradılır. SOS siqnalı vermək qərarına gələn dənizçilərin hazırladıqları mətn Azərbaycan, rus və ingilis dillərində yayımlanır.

Yanvarın 20-si səhər saat 11.30-dan 21-nə keçən gecəyədək 4 dəfə təkrar olunan SOS siqnalının ilk mətninin əks sədasını dənizçilər bir saatdan sonra Kalininqraddan, Qara dənizdən, Baltik dənizindən verilən radioqramlardan alırlar. 50-dən çox ölkənin dənizçiləri radioqramlarla Azərbaycan dənizçiləri ilə həmrəy olduqlarını və bu faciənin bütün dünyaya çatdırılmasına kömək edəcəklərini bildirirlər. Bu həm də dünya dənizçilərinin həmrəylik nümayiş etdirdiyi ilk hadisə kimi tarixə düşür.

Dənizçilərimizə təzyiq və hədələr durmadan artır. SSRİ müdafiə nazirinin müavini admiral Sidorovun və digər yüksək çinli rəhbərlərin buxtanın dərhal boşaldılması tələbinə Azərbaycan dənizçiləri birmənalı olaraq "yox" deyirlər.

Dənizçilərimiz geri çəkilmədiyindən hərbçilər mülki gəmilərimizi müxtəlif silahlardan atəşə tuturlar. Həmin atəş izləri hələ də bəzi gəmilərin üzərində durur.

Hadisələrdən sonra 40-a yaxın kapitanımız həbs edilir, onların barəsində cinayət işi açılır...

"Azadlıq carçıları" sənədli filmi həm də onu sübut edir ki, o vaxt dənizçilərimizin cəsarətli addımları sovet hərbi gəmilərinin Bakı buxtasına yan almasının və sovet əsgərlərinin törətdiyi qətliamı davam etdirməsinin qarşısını almaqda mühüm rol oynayıb.

Bəli, film təkcə 20 Yanvar faciəsinin ağrı-acılarını özündə əks etdirmir. Ən azı elə buna görə "Azadlıq carçıları"na baxmağa dəyər.

# GÜNAHKARLAR CƏZASINI ALMALIDIR

## *(20 Yanvar şəhidlərinin xatirəsinə)*

*Kim deyir ki, o gecə*
*Atanı vururdular?*
*Küçədə gəzəndən çox*
*Evində dincələni,*
*Yatanı vururdular.*
*Atanı vurdular ki?*
*Harda idi bir də axı*
*Silah bizdə -*
*Mərmi bizdə, "Qrad" bizdə?*
*Əlimizdən*
*Babalardan miras qalan*
*Təklüləli tüfəngi də*
*Min hiyləylə*
*Çoxdan,*
*Çoxdan almışdılar,*
*Silah nədi, yaraq nədi,*
*Güllə nədi, daraq nədi?*
*Dəmir adda nə vardısa-*
*Yaba, balta, orağı da,*
*Dəryaz, dırmıx, darağı da...*
*"Soyuq silah" adı ilə*
*Yığmışdılar,*
*Özgə tələ qurmuşdular*
*Qudurmuşlar,*
*Bilə-bilə,*
*Bizi xain qonşularla*
*Ədalətli savaşımda*
*Əliyalın qoymuşdular...*
*Kimə gəldi atırdılar*
*insafsızlar,*
*Gözlərinə dəyənləri*
*Tanklarının*
*Qabağına qatırdılar*
*O qansızlar.*
*Sağımdakı şəhid oldu,*
*Solumdakı şəhid oldu.*
*Yolumdakı şəhid oldu,*
*Qolumdakı şəhid oldu,*
*Şəhid oldu qoca, cavan,*
*Şəhid oldu körpə...*
*Yalan?*
*Bu qan yerdə qalmalıdır?*
*Şəhid varsa,*
*Şahid varsa*
*Lap üstündən*
*Qərinələr keçsə belə,*
*Günahkarlar*
*Cəzasını almalıdır.*
*Şəhidlərin öz zirvəsi,*
*Şahidlərin öz borcu var.*
*Şəhidlərə yanmaq ilə*
*İş bitməz ki!*
*Şəhidləri anmaq ilə*
*İş bitməz ki!*
*Gözümüzdə yaş quruyar,*
*İçimizdən dərd getməz ki!*
*Haqq yerini tutsun gərək,*
*Etməliyik gen dünyanı*
*Əli qana batanların*
*Hər biriyçün*
*Biz mütləq dar.*
*Bəlkə onda şəhidlərin*
*Ruhları da dinclik tapar.*

*Rasif İMANOĞLU*

# AZƏRBAYCAN AÇIQ OKEANA ÇIXIŞI OLMAYAN BİR ÖLKƏ KİMİ REGİONAL NƏQLİYYAT DƏHLİZİNƏ ÇEVRİLİB

***AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" adlı interaktiv iclasında Azərbaycanın təşəbbüskarı olduğu beynəlxalq enerji və nəqliyyat layihələrindən də danışıb.***

Enerji layihələrinin Azərbaycan və region üçün əhəmiyyətini diqqətə çatdıran Prezident İlham Əliyev qeyd edib ki, ölkəmizin təşəbbüskarı olduğu layihələr regionun enerji xəritəsini dəyişib. "Gürcüstanın Supsa limanına qədər inşa etdiyimiz ilk kəmər Xəzər dənizini Qara dənizlə birləşdirdi. Daha sonra inşa etdiyimiz Bakı-Tbilisi-Ceyhan neft kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi. Bundan sonra həmin marşrut boyu biz qaz kəmərini də inşa etdik. Beləliklə, biz karbohidrogen ehtiyatlarımız üçün şaxələnmiş ixrac marşrutlarına malikik və geniş mənada tərəfdaşlarımızın, o cümlədən Avropada olan tərəfdaşlarımızın enerji təhlükəsizliyini təmin edirik. Avropa İttifaqının üzvü olan bəzi dövlətlərin neftə tələbatının böyük hissəsi Azərbaycan tərəfindən təmin edilir. İki-üç ildən - "Cənub Qaz Dəhlizi" layihəmiz uğurla icra olunandan sonra onlar bizim təbii qaz ehtiyatlarımıza da çıxış əldə edəcəklər", - deyə dövlətimizin başçısı vurğulayıb.



Nəqliyyat layihələrindən də bəhs edən Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin önəmini vurğulayaraq deyib: "Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi regionun nəqliyyat xəritəsini dəyişdirdi. Bu gün bu, Çindən Avropaya olan ən qısa marşrutdur - əvvəllər bu məsafə 30-35 gün ərzində qət olunurdusa, artıq bu gün iki həftə ərzində qət edilir. Beləliklə, bu nəqliyyat və enerji şaxələndirilməsinin yeni xəritəsidir və düşünürəm ki, açıq okeana çıxışı olmayan bir ölkə kimi Azərbaycan regional nəqliyyat dəhlizinə çevrilmişdir. Ancaq əlbəttə ki, hələ də görüləcək işlərimiz var".

Dövlətimizin başçısı qeyd edib ki, gələcək neft və qazdan ibarət deyil, onlar bir gün tükənəcək. Gələcək innovasiya, texnologiya, yaxşı idarəçilik, şəffaflıq və sahibkarlığa dövlət dəstəyindən ibarət olacaq.

# DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN HƏCMİ 43,7 FAİZ ARTIB



***Dəniz nəqliyyatı ilə 2017-ci ilin yanvar-dekabr ayında daşınmış yüklərin həcmi 8344,6 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 43,7 faiz artıb. Yüklərin 48,7 faizini neft yükləri təşkil edib.***

Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən bildirilib ki, dəniz limanlarında 10769,2 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 10141,1 min tonunu və ya 94,2 faizini tranzit yüklər təşkil edib. 2018-ci il yanvar ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 244,7 min ton idxal yükləri olub.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 12,8 faiz azalaraq 17,1 min nəfər olub.

# AZƏRBAYCANIN "İNKLÜZİV İNKİŞAF İNDEKSİ 2018" HESABATINDA İRƏLİLƏMƏSİ UĞURLU İSLAHATLARIN NƏTİCƏSİDİR

***Dünya İqtisadi Forumunun nüfuzlu indeksi sayılan "İnklüziv İnkişaf İndeksi 2018"də Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşıb. Dünya İqtisadi Forumunun inklüziv inkişaf hesabatında Azərbaycan Litva və Macarıstan istisna olmaqla digər bütün inkişaf etməkdə olan ölkələri geridə qoyub.***

**Most inclusive emerging economies**

| | Rank |
|---|---|
| Lithuania | 1 |
| Hungary | 2 |
| Azerbaijan | 3 |
| Latvia | 4 |
| Poland | 5 |
| Panama | 6 |
| Croatia | 7 |
| Uruguay | 8 |
| Chile | 9 |
| Romania | 10 |

Source: Inclusive Development Index 2018, World Economic Forum

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə AZƏRTAC-a bildirib ki, Azərbaycanın "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında inkişaf etməkdə olan ölkələr üzrə ilk üçlükdə, MDB-də isə lider olması Prezident İlham Əliyevin apardığı sürətli, məqsədyönlü, inklüziv iqtisadi islahatlara beynəlxalq qiymətdir.

N.Hacızadə, həmçinin Azərbaycanın "İnklüziv İnkişaf İndeksi 2018"də irəliləməsinin vacibliyi barədə danışaraq qeyd edib ki, hesabatın əsas qayəsi insanların maddi və sosial rifah halının, məşğulluq, sağlam həyat gözləntilərinin qiymətləndirilməsi və ölçülməsidir: "Sözügedən indeks üzrə Azərbaycan ilk üçlükdə qiymətləndirilib ki, bu Azərbaycanda əhalinin sosial rifah halının digər ölkələrə nisbətdə daha yaxşı olması, Prezident İlham Əliyevin ölkədə apardığı sosial-iqtisadi islahatların tərkib hissəsidir. Hesabatı tədqiq və təhlil etdikdə, müşahidə etmək mümkündür ki, müxtəlif indikatorlar üzrə Azərbaycanın mövqeyi bir sıra Avropa ölkələrindən və bütün MDB-dən daha yaxşıdır".

"İnklüziv inkişaf indeksi 3 əsas indikator olmaqla, 12 sub-indikatora əsasən formalaşır. "Artım və inkişaf", "İnklüzivlik", "Nəsillərarası bərabərlik və dayanıqlılıq" əsas indekslər olmaqla inkişaf etmiş və inkişafda olan ölkələrin reytinqini formalaşdırır. "İnklüziv İnkişaf İndeksi 2018" hesabatı ölkələrin adam başına düşən ÜDM, əmək məhsuldarlığı, sağlam həyat gözləntiləri, məşğulluq, CİNİ əmsalı+, yoxsulluq dərəcəsi, xalis yığımların tənzimlənməsi və sair sub-indikatorlar əsasında qiymətləndirir", - deyə N.Hacızadə qeyd edib.

O bildirib ki, sözügedən hesabatın ilk indikatoru sayılan "Artım və inkişaf" göstəricisi əsas makroiqtisadi sub-indikatoru sayılan və ölkədə yaşayan insanların həyat səviyyəsinin əsas göstəricilərindən biri adambaşına düşən ÜDM üzrə, habelə əhalinin məşğulluğu, əmək məhsuldarlığı və tibbi-nöqteyi cəhətdən sağlam insanların gözləntiləri üzrə Azərbaycan yüksək qiymətləndirilib. Şübhəsiz ki, bütün bunlar Azərbaycan Respublikası Prezidentinin son illər apardığı dərin iqtisadi islahatların nəticəsidir. Əhalinin bütün təbəqələrinin maddi və sosial rifah halını daima diqqətdə saxlayan Prezident İlham Əliyevin ölkəmizdə apardığı sosial siyasət beynəlxalq reytinqlər tərəfindən obyektiv və yüksək şəkildə qiymətləndirilib.

"Bundan əlavə, ikinci əsas indikator sayılan "İnklüzivlik" indikatoru əhali arasında təbəqələşmənin səviyyəsi, yoxsulluğu, fiziki şəxslər və ev təsərrüfatlarının gəlirlərin bölgüsünü (GİNİ – Xalis gəlirlər) təyin edir. Hesabata əsasən, sözügedən indikator üzrə ölkəmizin əldə etdiyi qiymətləndirmə nəticələri dünyanın inkişaf etməkdə olan ölkələrindən daha yaxşıdır. Hesabatın metodologiyasına əsasən, CİNİ əmsalı sub-indikatoru 0-100 bal arasında dəyişir ki, 0 bal olduqda əhali arasında bərabərlik ən yüksək səviyyədə olması, 100 bal olduqda isə əhali arasında bərabərsizliyin ən yüksək səviyyədə olması kimi qiymətləndirilir. Sub-indikatorun hesablanması fiziki şəxslər və ev təsərrüfatlarında çalışan insanlar arasında gəlirlərin (vergi və köçürmədən sonra) bərabər və ədalətli şəkildə bölünməsini özündə ehtiva edir. Azərbaycan 28.6 balla qiymətləndirilib ki, bu sub-indikator üzrə Azərbaycan hətta lider Litvanı da geridə qoyaraq Macarıstandan sonra ən yaxşı göstəriciyə malikdir. Digər sub-indikator olan yoxsulluq üzrə də ölkəmizin mövqeyi yüksəkdir. Bu indikatorun ölkədə əhalinin neçə faiz hissəsinin 3 dollardan daha aşağı gəlir əldə etməsini təyin edir ki, həmin faiz dərəcələri ilə yoxsulluq göstəriciləri üzrə ölkələr sıralanır. Azərbaycan hesabatda orta-yüksək gəlirli ölkələr sırasına daxildir ki, bütün MDB-dən öndədir. Əlavə olaraq qeyd etmək yerinə düşər ki, MDB-də yoxsulluq reytinqi üzrə ən aşağı göstərici sırasında Tacikistan, Qırğızıstan və Ermənistanın adı çəkilir", - deyə o bildirib.

N.Hacızadə deyib ki, adıçəkilən inklüzivlik göstəricisinin sonuncu sub-indikatoru median gəliri indikatoru adlanır. Bu indikator özündə makroiqtisadi parametrləri cəmləşdirir. Belə ki, sub-göstəricisinin hesablanmasında əsas məqsəd ölkədə əhalinin alıcılıq qabiliyyətinin hesablanması və müvafiq olaraq qiymətləndirilməsidir. Beynəlxalq hesabatın göstəricisini metodologiyaya əsasən təhlil etdikdə, müşahidə edirik ki, dünyada baş verən bir sıra mənfi tendensiyalara və neft ixracatçısı ölkəsi hesab edilən Azərbaycanda milli valyutanın ABŞ dolları qarşısında dəyər itirməsinə baxmayaraq, ölkədə qiymətlər sabitliyini qoruyub saxlayıb və əhalinin alıcılıq qabiliyyətinə ciddi təsir edib.

"İnklüziv İnkişaf İndeksi 2018" hesabatının sonuncu, "Dayanıqlılıq" indikatoru dövlət borcunun hesablanması, asılılıq indeksi sub-indikatorları təşkil edirlər. Dövlət borcunun ÜDM-də payına əsasən Azərbaycan Qlobal Rəqabətlilik hesabatında olduğu kimi bu hesabatda da yüksək qiymətləndirilib. Dövlət borcu indikatorunun metodologiyasına əsasən, xalis borcun tərkibinə müxtəlif öhdəliklər daxildir. Bu öhdəliklərə depozitlər, istiqrazlar, ödəniləcək kreditlər, sığorta, pensiyalar və digər öhdəliklər dövlət borcunun tərkib hissəsidir. Hesabatın qiymətləndirilməsi göstərir ki, Azərbaycan dövlət borcunun ÜDM-də payına görə MDB və regionun lider dövlətidir. Bundan əlavə, Azərbaycanın strateji valyuta ehtiyatları beynəlxalq iqtisadi qurumlar qarşısında rahat borc götürməyə imkan yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan beynəlxalq layihələr rentabelliyinə və gələcək perspektivlərinə görə aparıcı beynəlxalq iqtisadi təşkilatların, bankların və fondların hər zaman diqqətində olub. Bu səbəbdən Azərbaycan dövlət borclarının səmərəli icrasına görə hər zaman nüfuzlu beynəlxalq indekslər tərəfindən müsbət qiymətləndirilib", - deyə N.Hacızadə əlavə edib.

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri bildirib ki, sonuncu sub-indikator asılılıq göstəricisi isə iqtisadi cəhətdən fəal əhali ilə fəal olmayan əhalinin iqtisadiyyatda yeri, iqtisadi cəhətdən fəal əhalinin iqtisadiyyata töhfəsini hesablayır: "Azərbaycan iqtisadi fəal əhali (işçi qüvvəsi) – məşğul və işsiz əhalinin ümumi sayını əhatə edir. 15 və yuxarı yaşda məşğul olmayan və müəyyən dövr ərzində iş axtarmayan şəxslər iqtisadi qeyri-fəal əhaliyə aid edilir. Beynəlxalq indeksin metodologiyasına əsasən, 15-64 yaşarası iqtisadi fəal əhali sayı və 100 nəfərə düşən hesaba əsasən qiymətləndirmə aparılır. Habelə, beynəlxalq iqtisadi ədəbiyyatlar asılılıq indeksi deyərkən əhalinin neçə faizinin işlək olduğu və gəlir götürmək qabiliyyətinə malik olduğunu ölçür. Sözügedən əmsalın çox olması əhali arasında iqtisadi cəhətdən fəal olmayan əhalinin çox olması deməkdir ki, bu sosial təminat, sosial müdafiə və səhiyyə xərclərinin daha çox olması anlamına gəlir ki, bu iqtisadiyyatda əlavə dəyər yaratma qabiliyyətinə mənfi yöndən təsir edir. Azərbaycan bu sub-indikator üzrə 40,9 faiz səviyyəsində qiymətləndirilib ki, bu da əksər inkişaf etmiş və inkişafda olan ölkələrin faiz dərəcələrindən daha azdır. Başqa sözlə ölkəmizdə olan fəal iqtisadi əhalinin sayı iqtisadiyyatda daha çox üstünlük təşkil edir".

Əlavə edək ki, Azərbaycan Litva və Macarıstandan cüzi faizlərlə geri qalıb ki, bu da müvafiq olaraq 0,17 və 0,05 faiz təşkil edib. Reytinqdə Azərbaycan Latviya, Polşa, Xorvatiya, Rumıniya, Bolqarıstan, Makedoniya kimi ölkələri 0,2–0,5 faiz dərəcələri ilə, qonşu Rusiyanı 0,49 faiz, Türkiyəni 0,43 faiz, Gürcüstanı 0,7 faiz, İran İslam Respublikasını 0,61 faiz, Ermənistanı 1,03 faiz qabaqlayıb.

# TÜRKMƏNİSTAN DAYANIQLI NƏQLİYYAT ÜZRƏ QLOBAL KONFRANS KEÇİRMƏK NİYYƏTİNDƏDİR



***Türkmənistan Aşqabadda və ya "Avaz" milli turizm zonasında Dayanıqlı nəqliyyat üzrə qlobal konfrans keçirməyi planlaşdırır.***

Bunu Türkmənistanın Azərbaycandakı səfiri Mekan İşanquliyev yanvarın 24-də səfirlikdə keçirilən mətbuat konfransında bildirib. Mətbuat konfransı BMT Baş Məclisinin 72-ci sessiyasının 74-cü iclasında Türkmənistanın təşəbbüsü ilə "Dayanıqlı inkişaf sahəsində məqsədlərin əldə edilməsi üçün bütün nəqliyyat növləri arasında əlaqələrin möhkəmləndirilməsi" qətnaməsinin qəbul edilməsinə həsr olunub.

Nəqliyyat və logistika sahəsində böyük potensialı olan Türkmənistan bir sıra iri beynəlxalq və regional layihələrin təşəbbüskarıdır. Bu layihələrin həyata keçirilməsi Mərkəzin Asiya ölkələri ilə qonşu regionlar arasında iqtisadi və ticari əməkdaşlığı müasir səviyyəyə yüksəltməyə, perspektivdə regionlararası əlaqələrə güclü təkan verməyə, Mərkəzi Asiya, Xəzər dənizi, Qara dəniz və Baltik dənizi regionlarını, Orta və Yaxın Şərqi, Cənubi və Cənub-Şərqi Asiyanı birləşdirən yeni geoiqtisadi məkanın arxitekturasının təməlini qoymağa imkan verəcək.

Türkmənistanla Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlığın böyük perspektivləri olduğunu bildirən diplomatın fikrincə, bu il Ələtdə yeni Bakı Limanının açılması sayəsində yükdaşımaların həcmi və coğrafiyası dəfələrlə genişlənəcək.

# MODERNLƏŞDİRİLMİŞ "DAĞISTAN" GƏMİ-BƏRƏSİ DƏNİZ SINAĞINDAN UĞURLA ÇIXIB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda əsaslı təmirə dayanan "Dağıstan" gəmi-bərəsi dəniz sınağından uğurla çıxıb.***

Sınaq zamanı 16 uzel sürətlə hərəkət edən gəmidə heç bir çatışmazlıq aşkarlanmayıb.

Qeyd edək ki, "Dağıstan" bərəsinin istifadəetmə müddəti bitmiş iki köməkçi mühərriki "Hyundai" markalı mühərriklərlə əvəzlənib. Yeni quraşdırılan 1000 kilovat gücündə mühərriklər əvvəlkilərlə müqayisədə daha qənaətcil və effektivdir. Bu mühərriklər avadanlığa göstəriləcək xidməti asanlaşdırmaq baxımından da sərfəlidir.

Köməkçi mühərriklərlə yanaşı, gəminin əsas hərəkətverici mühərrik və qurğuları yeni layihə əsasında dəyişdirilib. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi təzə baş mühərrikləri Finlandiyadan sifariş edib. "Wartsila" markalı W32 baş mühərriki dünya gəmiqayırma sahəsində lider brendlərdən hesab olunur. Bir sözlə, həddindən artıq ağır çəkiyə malik köhnə mühərriklərdən fərqli olaraq yeniləri öz funksionallığı ilə seçilir.

Eyni zamanda "Dağıstan" gəmi-bərəsinin bütün idarəetmə sistemləri dəyişdirilərək daha müasirləri ilə əvəz edilir. Bundan başqa, pərlərə nəzarət sistemi, köməkçi burun sükanı, radionaviqasiya və elektrik avadanlıqları, generatorları da təzələri ilə əvəzlənib. Bərənin bütün köməkçi – yağ, su, ballast sistemləri və sair əsaslı təmir olunub. Buxar qazanı yanacaq yandırma sistemləri əvəzlənməklə müasirləşdirilib.

Gəmi-bərənin gövdə və sualtı hissələri də təmir olunaraq rənglənib. Yaşayış və xidmət sahələri müasir standartlara uyğun təmir edilib.

Məlumat üçün bildirək ki, "Dağıstan" bərəsinin yükgötürmə qabiliyyəti 2425 tondur. Bərənin avtomobil və vaqon daşımaq üçün 2 göyərtəsi var. Alt göyərtə avtomobil, üst göyərtə isə vaqon daşımaq üçün nəzərdə tutulub.











## AXDG-DƏ ƏTRAF MÜHİTƏ ZƏRƏRİN VURULMAMASI ÜÇÜN BÜTÜN QABAQLAYICI TƏDBİRLƏR GÖRÜLÜR

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi gəmilərinin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan neftli şlamların, işlənmiş yağların, digər maye və bərk tullantıların su mənbələrinə, qrunta və havaya ekoloji mənfi təsirlərinin minimuma endirilməsini daim diqqət mərkəzində saxlayır.***

Əməliyyatlar zamanı ətraf mühitə zərərin vurulmaması üçün mövcud imkanlar daxilində zəruri qabaqlayıcı tədbirlər görülür.

2017-ci ildə Cəmiyyətin həm sahil, həm də dəniz obyektlərində formalaşan 141333 ton çirkab məişət-təsərrüfat suyu, 4501,4 ton neftli döşəməaltı su, 90,474 ton yağlı əski, 54,111 ton sintetik propilen buraz kəndir qalığı, 0,92 ton istifadə müddəti bitmiş kimyəvi tərkibli məmulat bağlanmış müqavilələr əsasında səriştəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlara təhvil verilməklə ərazilərimizdən kənarlaşdırılıb.

Həmçinin, 126 ədəd yararsız akkumulyator, 594 ədəd avtomobil şini, 75,811 ton rezin tullantısı, 213 ədəd yanacaq, 663 ədəd yağ və 343 ədəd hava süzgəcləri, 1,083 ton toner-katric, 344,98 ton keramik qırıntı, 64,99 ton işlənmiş boya qabı və boya tullantıları, 485,24 ton taxta tullantı, 60 ton tibbi tullantı, 169,702 ton şüşə qırığı, 226,825 ton sellüloz tullantısı, 223,618 ton tekstil parça qalığı, 335,324 ton polimer əsaslı və plastmas tullantı, 820,106 ton qida qalığı aidiyyəti üzrə təhvil verilib.

Qeyd edilən dövrdə Dənizkənarı Milli Park və Cəmiyyətin sahil fəaliyyət akvatoriyaları səthindən 0,19 ton neft-su qarışığı, habelə 38,48 ton müxtəlif ölçülü əşyalar yığılıb təhvil verilib.



## KURSLAR İLK DƏFƏ YERLİ MÜTƏXƏSSİSLƏR TƏRƏFİNDƏN KEÇİRİLİB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim Tədris Mərkəzində ilk dəfə olaraq yerli təlimatçı və müəllimlərlə "Təlimatçılar üçün hazırlıq", "Trenajor təlimatçıları və qiymətləndiricilərin hazırlığı", "Dənizçilərin bilik və bacarığının yoxlanmasına və qiymətləndirilməsinə dair hazırlıq" kursları keçirilib.***

Kursun dinləyiciləri arasında Qazaxıstanın Ş.Yesenov adına Texnologiya və Mühəndislik Xəzər Dövlət Universitetinin əməkdaşları da olub. Əvvəllər Təlim Tədris Mərkəzində belə kursları yalnız xarici ölkələrdən dəvət olunmuş mütəxəssislər aparıblar.

Kursları müvəffəqiyyətlə bitirən dinləyicilərə müvafiq sertifikatlar təqdim edilib.

Dinləyicilər yüksək keyfiyyətli təlimə görə Təlim Tədris Mərkəzinin və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin əməkdaşlarına minnətdarlıqlarını bildiriblər.

## TÜRKMƏNİSTANA MƏXSUS GƏMİ BAKIDA TƏMİR OLUNUR




***Türkmənistan Respublikasının Dəniz Ticarət Donanmasına məxsus "Berkarar" gəmi-bərəsi "Zığ" Gəmi Təmiri və Tikinitisi zavodunda təmirə dayanıb.***

Zavodda gəminin sualtı və suüstü hissələrinin təmizlənməsi və üçqat boya ilə rənglənməsi həyata keçirilir. Eyni zamanda hər iki baş mühərrik, dizel generatorlar, 6 nasos təmir olunur.

"Berkarar" gəmisinin boru və elektrik sistemlərində də təmir işləri görülür.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun əsas fəaliyyət istiqaməti "AXDG" QSC-yə və başqa təşkilatlara məxsus gəmiləri və texniki avadanlıqları təmir etməkdən və onlar üçün sifarişlər əsasında müxtəlif növ ehtiyat hissələri, texniki vasitələr hazırlamaqdan ibarətdir.

# TAP LAYİHƏSİ ÜZRƏ İŞLƏRİN 65 FAİZİ TAMAMLANIB

Trans Adriatic Pipeline



***Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 65 faizi yekunlaşıb.***

Anadolu Agentliyi xəbər verir ki, bu barədə TAP-ın kommunikasiya rəhbəri Lisa Givert deyib. O bildirib ki, yanvarın ortasına boru kəməri marşrutu üzrə Yunanıstanda 518 kilometr ərazi təmizlənib, 473 kilometr boru xətt boyunca düzülüb, 457 kilometr boru qaynaqlanıb, 362 kilometr boru torpağa basdırılıb və 265 kilometr sahə əvvəlki vəziyyətinə gətirilib.

Albaniyada isə boru kəməri marşrutu boyunca 168 kilometr ərazi təmizlənib, 163 kilometr boru xətt boyunca düzülüb, 157 kilometr borunun qaynağı tamamlanıb. Həmçinin bu ölkədə 133 kilometr boru torpağa basdırılıb və marşrut üzrə 116 kilometr sahə əvvəlki vəziyyətinə gətirilib.

"TAP-ın keçdiyi 3 ölkədə işçilər 61,5 milyon kilometr yol qət edib və 22,5 milyon nəfər-saat iş görülüb", - deyə L.Givert əlavə edib.

Qeyd edək ki, TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır.

TAP boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanın şərqində - Kipoidə, digəri isə Albaniyanın qərbində - Fierdə olmaqla ümumilikdə iki kompressor stansiyasının tikintisi qrafikə uyğun davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionuna yaxın ərazidə bir ölçmə stansiyasının inşası aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən iki il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. TAP qaz boru kəməri üçün lazım olan turbo kompressorlar "Siemens" şirkəti tərəfindən istehsal edilib. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"-dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# "ERMƏNİSTANA PREZİDENT LAZIM DEYİL"

***Ermənistan prezidenti Serj Sarkisyan istər ölkədə, istərsə də beynəlxalq aləmdə nüfuzunu tamamilə itirdiyini gördükdən sonra yenidən dövlət başçısı seçilə bilməyəcəyini anladı. Lakin hakimiyyəti əldən verməmək üçün yeni plan hazırlayaraq ölkəni parlament tipli respublikaya çevirib özünü baş nazir elan etmək qərarına gəldi. Bu halda da ölkəyə prezident lazımdır.***

Parlament tipli respublikanın prezident tipli respublikadan əsas fərqi ondadır ki, burada hakimiyyət bölgüsü zamanı baş nazirə daha çox səlahiyyət çatır. Odur ki, Sarkisyan bundan səmərəli istifadə etməyə çalışır. Ermənistan ictimaiyyətinin etirazlarına baxmayaraq Sarkisyan ələ baxan prezident axtarır.

Ermənistanda cərəyan edən proseslərlə bağlı "Armtimes" saytında məqalə ilə çıxış edən Lilit Avakyan yarızarafat yarıgerçək yazır ki, Ermənistana, ümumiyyətlə, prezident lazım deyil. Prezidentlik institutu onsuz da güc-bəla ilə doldurulan Ermənistan büdcəsinə əlavə yükdür. Sarkisyanın prezident olduğu dövrdə prezidentin lazımsız vəzifə olduğu bütün çılpaqlığı ilə özünü göstərdi.

Müəllif qeyd edir ki, taleyüklü məsələlərin həlli zamanı prezident ya ölkədə olmayıb, ya da susub. 2013-cü ilin iyununda ölkədə nəqliyyat xidmətlərinin qiyməti 50 faiz artdı və onsuz da ağır sosial vəziyyətdə olan əhalinin durumu daha da pisləşdi. Bütün xalq ümidini prezidentə bağladı ki, bəlkə o, nə isə bir iş görər və qiymətlər 50 yox, heç olmasa 25 faiz artar. Lakin Sarkisyan heç nə olmamış kimi istirahətə yollandı.

2015-ci ilin yanvarında Gümrüdə yerləşən 102 saylı Rusiya hərbi bazasının hərbi qulluqçusu Valeri Permyakov Avetisovlar ailəsinin bütün üzvlərini güllələdi. Bütün xalq ayağa qalxdı, polislə əhali arasında qarşıdurma yarandı, bir çoxları həbs olundu. Xalqın yeganə tələbi bu idi ki, cani Ermənistanda mühakimə olunsun. Lakin yenə də prezident S.Sarkisyandan səs çıxmadı. Prezident nəinki başsağlığı vermədi, heç cinayəti qınamadı da, sanki belə hadisə baş verməyib. 2016-cı ilin iyun ayında silahlılar Yerevandakı polis şöbəsinə hücum edib oranı tutanda da dövlət başçısından səs çıxmadı. Bütün dünya Yerevanda baş verən silahli insidentdən danışdı, amma ölkə prezidenti bir kəlmə də olsun danışmadı. Həmin vaxt ictimaiyyəti baş vermiş silahlı hadisədən daha çox prezidentin susması maraqlandırırdı. İnsanlar bir-birilərinə sual verirdilər: Görəsən prezident niyə susur?

2016-cı ilin aprel ayında da prezident susdu. Həmin vaxt Azərbaycan ordusu Lələtəpəni və Cocuq Mərcanlını azad etdi və erməni hərbçiləri görünməmiş itkiyə məruz qaldı. Yenə də bütün dünya cəbhə xəttində baş verən hadisələrdən danışdı. Lakin prezident və silahlı qüvvələrin ali baş komandanı aprel döyüşlərinə münasibət bildirmədi. Çünki S.Sarkisyanın deməyə sözü yox idi. Məhz onun apardığı siyasət nəticəsində Ermənistan bu günə düşüb.

Müəllif bir çox belə faktları sadalayaraq qeyd edir ki, belə prezidentdənsə, heç olmaması daha yaxşıdır. Prezident olanda nə edirdisə, baş nazir olanda da onu edəcək. Bunun xalqa dəxli yoxdur.

***Rabil Kətanov***

# DEYƏSƏN AVROPA DAĞILIR

***Avropa Komissiyası Polşa barəsində cərimə prosedurunu müzakirə edir. Rumıniyada on minlərlə nümayişçi hüquqi dövlət prinsiplərinin saxtalaşdırılmasına qarşı etiraz edir. İstər Budapeşt olsun, istərsə Buxarest və ya Varşava – hər üçündə ümumi cəhət ondan ibarətdir ki, bu dövlətlərin hökumətləri məhkəmə təsisatları üzərində nəzarət etməyə və hakimiyyət bölgüsü prinsipini pozmağa cəhd göstərirlər.***

Avropa Komissiyasının fikrincə, "dəmir pərdə" götürüləndən təxminən 30 il sonra Şərqi Avropa ölkələrində demokratiya prinsipləri "təhlükə qarşısındadır".

"Alman dalğası" yazır ki, Polşa, Macarıstan və Rumıniya hökumətləri tərəfindən bu ölkələrdə məhkəmə hakimiyyətinə birbaşa nəzarət etmək cəhdləri qismən uğurlu olub, lakin məhkəmə təsisatlarının müstəqilliyinin pozulması hakimiyyət bölgüsü prinsipini və dövlətdə qüvvələrin tarazlığını təhlükə altına alır.

Rumıniyada hakimiyyət orqanları korrupsiya ilə bağlı işlərin təhqiqatının qarşısını almaq imkanı əldə etmək üçün prokurorluğun səlahiyyətlərini məhdudlaşdırmağa çalışırlar. Polşada məhkəmə islahatı ədliyyə nazirliyinə öz mülahizəsinə əsasən məhkəmələrin sədrlərini vəzifəyə təyin etmək və vəzifədən azad etmək səlahiyyəti verilməsini nəzərdə tutur.



Macarıstanda 2011-ci ildə yeni Konstitusiya qəbul ediləndən sonra Konstitusiya Məhkəməsinin səlahiyyətləri xeyli məhdudlaşdırılıb, hakimlərin və prokurorların pensiya yaşının azaldılması isə "namünasib" dövlət qulluqçularından yaxa qurtarmağa imkan verib.

Şərqi və Cənub-Şərqi Avropa ölkələrində qaçqınlarla bərabər milli azlıqların nümayəndələrinin də vəziyyəti gərginləşib. Macarıstan hökuməti mütəmadi olaraq piar-aksiyalar keçirir, miqrant müsəlmanların zərəri barədə təbliğat apararaq ksenofob və islamofob ifadələrin köməyi ilə öz reytinqini artırmağa çalışır.

Ən iri etnik azlıq olan qaraçılar regionun bütün dövlətlərində ayrı-seçkiliyə məruz qalırlar. Keçmiş Yuqoslaviyada müharibənin nəticələrini ən çox hiss edən bu dövlət parçalanandan sonra onun yerində yaranmış ölkələrdəki etnik azlıqların nümayəndələri olub. Xorvatiyada və Kosovodakı serblər kimi, Serbiyadakı albanlar və bosniyalı müsəlmanlar da özlərinə qarşı düşmənçilik münasibəti ilə üzləşirlər. Macarıstan başqa ölkələrdə yaşayan həmvətənlərinin mənafelərini həddən artıq müdafiə etdiyinə görə Rumıniya və Slovakiya ilə daim münaqişə vəziyyətindədir.

Almaniyalı ekspert Martin Xok öz bloqunda yazır: "Bütün Avropa ölkələrində yüksəliş hiss edən populist partiyalar getdikcə tez-tez hökumətə daxil olurlar - yaxın vaxtlarda Avstriyada olduğu kimi. Lakin Şərqi Avropa bloku ölkələrinin əsas xüsusiyyəti hökumət partiyalarının çox güclü, dövlət institutlarının isə hədsiz zəif olmasıdır. İş yerlərinin və rəhbər vəzifələrin bölgüsü çox vaxt ixtisas səviyyəsindən və təcrübədən deyil, partiya mənsubiyyətindən asılıdır. Demokratik dəyərlərə sadiqlik bəzi dövlət liderləri üçün praktiki olaraq nominal məsələdir: həqiqətdə bu liderlərin bəziləri az qala bolşeviklər kimi hakimiyyəti mütləqləşdirməyə can atırlar".

Brüssel isə Budapeşt və Varşava tərəfindən Aİ prinsiplərinin daim pozulmasına incidilmiş və qayğılı, lakin işi başdan aşan məktəb müəllimi kimi baxır. O, gah hiddətlənmiş şəkildə xəbərdarlıq edir, gah da cərimə prosedurları tətbiq etməyə başlayır, lakin illərlə davam edən bu prosedurlar çox səmərəsiz olur.

Görünür, Avropada mürəkkəb dövr başlanır və o hələ ümumi yanaşmalar və prinsiplər hazırlamalıdır. Lakin Aİ üzvləri arasında yaranmış fikir ayrılıqlarından göründüyü kimi, bu məsələ heç də asan olmayacaq.

***Vüqar Seyidov***

# GƏMİÇİLİYİN ELEKTRON BİLET XİDMƏTİNDƏN İSTİFADƏ RAHAT VƏ SƏRFƏLİDİR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC müştəriləri elektron bilet xidmətindən istifadəyə dəvət edir.***

2016-cı ilin sentyabrından tətbiq olunan e-bilet xidmətindən yararlanmaqla Ro-Ro və bərə gəmiləri ilə müxtəlif tipli avtomobillər və sərnişin daşımaq mümkündür.

Elektron bilet xidməti ölkəmizdən keçən beynəlxalq nəqliyyat marşrutlarına cəlbediciliyin yüksəldilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə yük və sərnişin daşımalarında sənədləşmənin sadələşdirilməsi və operativliyin artırılması məqsədi ilə gerçəkləşdirilir.




Üstəlik, bu xidmət daha güvənli və sərfəlidir. Müştəri hər hansı vasitəçiyə müraciət edib əlavə pul ödəmək məcburiyyətində deyil.

Bu sistem istifadəçi üçün vaxta qənaət etmək baxımından da çox əlverişlidir. Yükün növü, yüklənmə və gediş limanları, ödəyən şəxs və daşınan nəqliyyat vasitəsi barədə məlumatlar daxil edildikdən sonra biletin qiyməti avtomatik hesablanır.

Xatırladaq ki, xidmətdən yararlanmaq üçün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin internet saytında onlayn ödəniş üçün müvafiq xanalar doldurulmalıdır.https://public.acsc.az/online/payment/index/az/

# ÖTƏN İL 4,4 MİLYON TON YÜK AŞIRILIB

***2017-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə daşınan yüklərin həcmi 4,4 milyon ton təşkil edib.***

Bakı Beynəlxalq Dəniz Ticarət Limanından bildirilib ki, ümumi yükdaşımanın (neft terminalı xaric) həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 31 faiz artıb və yük mübadiləsinin 85,7 faizi tranzit yükdaşımaların payına düşüb.




2017-ci ildə nəzərəçarpacaq artım dəmiryolu və sərnişin daşınmasında, həmçinin təkərli texnikanın, xüsusən də irihəcmli nəqliyyat vasitələrinin (TIR) aşırılmasında qeydə alınıb. Belə ki, Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının Bərə terminalında vaqon aşırılması 26,4 faiz artaraq 46 min 679 ədədə çatıb. 19 min 493 vaqon (41,8 faiz) Bakı-Türkmənbaşı-Bakı istiqamətində, 6124 vaqon (13,1 faiz) Bakı-Aktau-Bakı istiqamətində, 21 min 62 vaqon (45,1 faiz) isə 2017-ci ilin mart ayında istifadəyə verilmiş Kurık limanı (Bakı-Kurık-Bakı) istiqamətində hərəkət edib. Hər iki istiqamətdə (Türkmənistan və Qazaxıstan) keçən sərnişindaşıma isə 41,4 faiz artaraq 33 min 129 nəfər təşkil edib.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə Bakı Limanının xidmətlərindən istifadə edən nəqliyyat vasitələrinin sayı 21,4 faiz artaraq 28 min 584 ədəd olub. Bunlardan 18 min 840 ədədi (65,9 faiz) Bakı-Türkmənbaşı-Bakı istiqamətində, 9716 ədədi (34 faiz) Bakı-Aktau-Bakı istiqamətində, 28 ədədi (0,1 faiz) isə Bakı-Kurık-Bakı istiqamətində hərəkət edib.

Konteyner aşırılmasına gəldikdə isə 2017-ci ildə bu say 20 futluq konteyner (TEU) ekvivalentində 15 min 337 ədəd təşkil edib. Bunlardan 8447 TEU (55 faiz) Qazaxıstan limanları, 6890 TEU (45 faiz) isə Türkmənbaşı limanının payına düşüb. Ümumi yükaşırmada 67,8 faiz və ya 10 min 397 TEU yeni Bakı Limanın Bərə terminalı, 32,2 faiz və ya 4940 TEU isə Bakı şəhərinin mərkəzində yerləşən Əsas yük terminalı vasitəsi ilə daşınıb.

Əsas yük terminalında aşırılan bütün yüklərin həcmi 2017-ci ildə keçən ilin müvafiq dövrü ilə müqayisədə 44,6 faiz artaraq 607,7 min ton olub. Bu yüklərin böyük hissəsi tranzit konteynerlərin və digər quru yüklərin payına düşüb.

Qeyd edə ki, 2018-ci il yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının Ro-Ro terminalının açılışı həyata keçirilib. Ən müasir texniki tələblərə uyğun tikilən terminal 2 körpüdən ibarət olmaqla ildə 60 min TIR və ya 1,8 milyon ton yük qəbul etmək imkanına malikdir. Yeni Bakı Limanının inşasının ikinci fazasının bitməsi ilə yükaşırma potensialı 25 milyon ton yük, o cümlədən 500 min TEU olacaq.

# BAKI LİMANI YAPON MƏHSULLARININ AVROPAYA İXRAC OLUNMASINDA ÇOX VACİB MƏNTƏQƏLƏRDƏN BİRİDİR

***Bakı Limanı Yapon məhsullarının Avropaya ixrac olunmasında çox vacib məntəqələrdən biridir.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətinin məlumatına görə, bu sözləri yanvarın 17-də Yaponiyanın kənd təsərrüfatı, meşəçilik və balıqçılıq nazirliyinin, qida sənayesi işləri üzrə büronun və ixracın təşviq şöbəsinin xüsusi işlər üzrə məsləhətçisi Tsunemasa Teramoto Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfəri zamanı deyib.




"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktorunun baş müşaviri Rəşad Kərimov qonağa Bakı Limanının xarici ölkələrlə ticarət əlaqələri və daşınan yüklərin dövriyyəsi barədə məlumat verib. Liman ərazisi ilə əyani tanış olan qonaqlara limanın inkişaf konsepsiyası haqqında məlumat verilərək bildirib ki, limanın birinci fazasının tikinti işləri bitdikdən sonra yük qəbuletmə qabiliyyəti ildə 15 milyon ton olacaq.

Qida və sənaye məhsullarının ixracı ilə məşğul olan qonaq bildirib ki, Bakı Limanı Yapon məhsullarının Avropaya ixrac olunmasında çox vacib məntəqələrdən biridir və Şərqlə Qərb arasında ticarət əlaqələri üçün Bakı Limanı ilə əməkdaşlıq çox önəmlidir.

# TƏBİİ QAZ QƏBULU TERMİNALI İNŞA EDİLİR

***"Türk axını" qaz boru kəməri ("TurkStream") üzrə Türkiyədə təbii qazın qəbulu üçün terminalın inşasına başlanılıb.***

Bu barədə boru kəmərinin dəniz hissəsinin tikintisini həyata keçirən "South Stream Transport B.V." şirkəti məlumat yayıb. Bildirilir ki, layihə üzrə tikinti işləri üç sahə üzrə - Rusiyada və Türkiyədə quruda, eləcə də Qara dənizdə davam etdirilir. Terminal İstanbulun təxminən 100 kilometr qərbində yerləşən Kıyıköy bölgəsində tikilir.




Qara dənizin Rusiya sularında Anapa şəhəri yaxınlığında isə quru obyektlərinin tikintisi son mərhələdədir. Obyektlərin tikintisinin bu il başa çatması gözlənilir.

Xatırladaq ki, "South Stream Transport BV" Böyük Britaniyanın "Petrofac" şirkəti ilə "Türk axını" qaz boru kəməri layihəsi üzrə ötən ilin sentyabrında 340 milyon avroluq investisiya müqaviləsi imzalayıb. Müqavilə "Türk axını" boru kəmərinin inkişaf etdirilməsini və Türkiyə tərəfi üçün qaz qəbulu terminalının inşa edilməsini nəzərdə tuturdu. Əsas subpodratçı kimi Türkiyənin "Tekfen" inşaat şirkəti təyin edilmişdi.

Qeyd edək ki, Rusiyanın enerji nəhəngi "Gazprom" şirkəti cari ildə "Türk axını" layihəsinə 3,2 milyard dollar vəsait sərf edəcək. "South Stream Transport B.V." "Gazprom" şirkətinin 100 faizlik törəməsidir.

"Türk axını" qaz boru kəməri mayda Türkiyə sahillərinə çatacaq. Layihə üzrə qoşa xəttin ümumilikdə 700 kilometrdən çoxunun inşası tamamlanıb və boru kəməri 1860 kilometr uzunluğunda olacaq. 2019-cu ilin sonunda ilk Rusiya təbii qazının Türkiyəyə çatdırılması planlaşdırılır.

"Türk axını" boru kəmərinin dəniz hissəsinin inşasının 38 faizdən çoxu yekunlaşıb. Boru kəməri iki xətdən ibarət olacaq və hər biri 15,75 milyard kubmetr təbii qaz daşıyacaq. "Türk axını" boru kəməri ilə Rusiya təbii qazının Türkiyəyə və Avropaya nəqli planlaşdırılır. Layihə Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Kəmərin dəniz hissəsinin uzunluğu 910 kilometrə yaxın, quru hissəsi isə Türkiyə ərazisi üzrə 180 kilometrdir. Boru kəmərinin birinci xətti Türkiyə bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Layihənin ümumi dəyəri 11,4 milyard avro həcmində qiymətləndirilir.

# HİNDİSTAN ŞİMAL-CƏNUB BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZİNİN TEZLİKLƏ FORMALAŞMASINDA MARAQLIDIR

***İran ilə Rusiyanın dəmir yollarını birləşdirəcək Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti hazırdır və bu yaxınlarda istismara buraxılacaq.***

Bu sözləri İranın yollar və şəhərsalma naziri Abbas Axundi Hindistanda səfərdə olarkən deyib. Səfər çərçivəsində Hindistanın İranın dəmir yollarına 2 milyard dollar həcmində sərmayə yatırmağı haqqında razılıq əldə olunub.




Hindistanlı həmkarı Nitina Hodkariyə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inşası barədə məlumat verən A. Axundi nəzərə çatdırıb ki, 164 kilometrlik Qəzvin-Rəşt dəmir yolunun tikintisi bu ilin mart ayında yekunlaşacaq. Lakin tikinti işləri Rəşt-Astara dəmir yolu xətti üzrə davam edəcək. Nazir bu yolun çəkilişi üçün Azərbaycanın İrana 500 milyon dollar kredit verəcəyini də diqqətə çatdırıb. Qeyd olunub ki, məhz Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) xətti ilə İranın dəmir yolları sistemi Rusiyanın dəmir yolları sistemi ilə birləşəcək ki, bu da Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edəcək.

Hindistanın nəqliyyat naziri N.Hodkari ölkəsinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tezliklə formalaşmasında maraqlı olduğunu nəzərə çatdırıb. Bildirib ki, Hindistan Avropaya ixrac etdiyi yükləri Mumbai limanından İranın Bəndər-Abbas limanına göndərəcək və oradan da yüklər qatarla Rusiya və Şərqi Avropa ölkələrinə daşınacaq. Bu yol olduqca səmərəlidir.

***Rabil Kətanov***

# BP NEFT DAĞILMASINA GÖRƏ DAHA 1,7 MİLYARD DOLLAR ÖDƏYƏCƏK




***BP 2010-cu ildə Meksika Körfəzində neft platformasındakı partlayışdan sonra neft dağılması üçün daha 1,7 milyard dollar ödəyəcək.***

Bu barədə BP məlumat yayıb. Bildirilir ki, BP ABŞ məhkəməsinin qərarına əsasən daha 1,7 milyard dollar ödəyəcək və bu da şirkətin 2017-ci ilin dördüncü rübü üzrə xərclərində öz əksini tapacaq.

Bu açıqlamadan sonra Nyu-York birjasında BP-nin səhmlərinin qiyməti 3,1 faiz azalaraq 42,53 dollara düşüb.

Beləliklə də neft dağılması BP-yə təxminən 65 milyard dollara başa gəlib. BP 2015-ci ilin iyulunda neft dağılması ilə bağlı 18,7 milyard dollar, 2016-cı ilin aprelində isə ABŞ Ədliyyə Nazirliyi ilə razılaşma çərçivəsində bölgədəki 5 əyalətin yerli hökumətinə 20 milyard dollar ödəməyə razı olub. Şirkət, həmçinin Meksika Körfəzi sahilinin neftdən təmizlənməsinə, yerli sahibkarların zərərlərinin qarşılanmasına və federal hökumətə cərimə olmaqla təxminən 25 milyard dollar xərcləyib.

Xatırladaq ki, 2010-cu ilin aprelində Meksika Körfəzindəki BP-yə məxsus "Deepwater Horizon" neft platformasında baş vermiş partlayışda 11 işçi həlak olmuşdu. ABŞ tarixindəki ən böyük neft dağılması və ekoloji fəlakət olan bu hadisə nəticəsində okeana 4,2 milyon barrel xam neft axmışdı. Neft quyusu isə partlayışdan 87 gün sonra tamamilə bağlanmışdı.

# ŞƏRQİ ÇİN DƏNİZİNDƏ BATAN İRAN TANKERİNDƏN DƏNİZƏ SIZAN YANACAĞIN TƏMİZLƏNMƏSİNƏ BAŞLANILIB

***Şərqi Çin dənizində batan İrana məxsus tankerdən dənizə sızan yanacağın təmizlənilməsi işləri sürətlə aparılır.***

Bu barədə Çin televiziyası məlumat yayıb. Bildirilir ki, iki gəmi vasitəsilə neft dağılmasını aradan qaldırmaq üçün dənizə kimyəvi maddələr püskürdülür. Neft dağılmasının tanker batdıqdan sonra iki dəfə artdığı qeyd edilir.



Xatırladaq ki, İranın Milli Tanker Şirkəti (NITC) tərəfindən idarə olunan "The Sanchi" adlı neft tankeri yanvarın 6-da gecə Şanxaydan 160 mil uzaqlıqda "CF Crystal" adlı gəmi ilə toqquşub. Tanker İrandan Koreya Respublikasına son dərəcə yüngül və uçucu neft növü olan 136 min ton kondensat daşıyırdı. Təxminən 1 milyon barrelə bərabər olan bu kondensat yükünün bazar dəyəri 60 milyon dollar təşkil edirdi. Toqquşma nəticəsində ABŞ taxılını daşıyan yük gəmisinə isə az ziyan dəymiş və hamısı Çin vətəndaşı olan 21 heyət üzvü qurtarılmışdı. Lakin yanvarın 14-də "The Sanchi" adlı neft tankeri batmış və 32 heyət üzvünün hamısı həlak olmuşdu. İran hökuməti yanvarın 15-ni ölkədə ümummilli matəm elan etmişdi. Qəzanın başvermə səbəbi hələ də bilinmir.

# SİNQAPURUN "KEPPEL" GƏMİQAYIRMA KORPORASİYASI AZƏRBAYCANDAKI ŞİRKƏTİNİ LƏĞV EDİB

CSC
Caspian Shipyard Company Ltd

***Sinqapurun "Keppel" gəmiqayırma korporasiyası Azərbaycanda gəmi və üzən qazma qurğularının təmiri və təkmilləşdirilməsi ilə məşğul olan "Caspian Shipyard Company" (CSC) MMC-nin könüllü şəkildə ləğv edildiyini açıqlayıb.***

Bu barədə şirkət öz rəsmi saytında məlumat yayıb.

Məlumatda bildirilib ki, ləğvolunma prosedurana "AzerFELS" ("Keppel Offshore & Marine Ltd" şirkətinin törəmə şirkəti), SOCAR və "Lukoil Europe Holdings BV" arasında şirkətin yaradılması haqqında imzalanmış müqavilə müddətinin başa çatmasından sonra başlanılıb. Müqavilə 1997-ci il avqustun 26-da imzalanıb.

"Keppel" şirkəti Azərbaycanda fəaliyyətini "Bakı gəmiqayırma zavodu" MMC-də iştirak payı çərçivəsində davam etdirəcək.

Qeyd edək ki, şirkətdə iştirak payının 75 faizi "AzerFELS Ltd" şirkətinə, 20 faizi SOCAR-a və 5 faizi "LUKOIL"a məxsus idi.

# ÖTƏN İL AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 0,8 FAİZ ARTIB



***Ötən ilin əvvəlindən Azərbaycan əhalisinin sayı 80731 nəfər və ya 0,8 faiz artaraq dekabrın 1-nə 9890712 nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sıxlığı 114 nəfər olub. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-noyabr aylarında ölkə üzrə 132002 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,8 təşkil edib. Doğulan körpələrin 53,1 faizi oğlan, 46,9 faizi isə qız uşaqları olub. Körpələrdən 2374-ü əkiz, 54-ü üçəm doğulanlardır.

Yanvar-noyabr aylarında ölkədə 52318 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9 təşkil edib. 2017-ci ilin 11 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 57177 nikah və 13345 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4, boşanmaların sayı isə 1,5 olub.

Yanvar-noyabr ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2751 nəfər Azərbaycana gələn, 1704 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 1047 nəfər təşkil edib.

# “MÜƏSSİSƏLƏR ÖZ ƏMƏKDAŞLARINA TİBBİ XİDMƏTİN GÖSTƏRİLMƏSİNİ YA BİRBAŞA, YA DA TİBBİ SIĞORTA TƏŞKİLATLARI VASİTƏSİLƏ HƏYATA KEÇİRƏ BİLƏRLƏR”



***Ən vacib sığorta insan həyatının sığortalanmasıdır. Məhz buna görə dövlət tərəfindən icbari tibbi sığortanın tətbiqi üçün praktiki struktur formalaşdırılıb. Lakin həm cəmiyyət, həm xəstəxanalar, həm də sığorta şirkətlərinin bu prosesə necə hazır olması məsələsi maraq doğurur. Bu və digər məsələlərlə bağlı araşdırmaçı-yazar, Prezident mükafatçısı, “Dənizçilər poliklinikası” MMC-nin həkimi Adıgözəl Məmmədovla müsahibəni təqdim edirik. Qeyd edək ki, A.Məmmədov 90-cı illərdən tibbi sığortanın növləri və tətbiqi ilə bağlı araşdırma aparır.***

**- Tibb müəssisələrində aparılan islahatlar nə dərəcədə öz müsbət efektini göstərir?**

- Ölkəmizdə demokratik islahatların aparılması yeni düşüncə və mədəniyyətlərin də formalaşmasına ehtiyacın olduğunu göstərir. Bu baxımdan son illərdə dövrün tələbi kimi tibb müəssisələrində aparılan islahatları da qeyd etmək lazımdır. Çünki dövlətimizin ən vacib strategiyalarına vətəndaşlarımızın sağlamlığı da daxildir.

Həyata keçirilən islahatlar nəticəsində respublikamızın regionlarında bütün tələblərə cavab verən müalicə-diaqnostika mərkəzləri və xəstəxanalar istifadəyə verilib. Bu tibb müəssisələri ən son model tibbi avadanlıqlarla təmin edilib. Eyni zamanda ölkədə kifayət qədər peşəkar kadr potensialı da var. Azərbaycan Tibb Universitetinin təhsil sistemi dünyanın inkişaf etmiş bir çox ölkələrinin ali məktəblərinin tədris səviyyəsi ilə eynidir.

Amma formalaşmış stereotiplər nəticəsində etiraf edək ki, Azərbaycanda bir çox insanlar yalnız vəziyyətləri tam ağırlaşanda həkimə müraciət edirlər. Bunun üçün isə tərəflərin - həm cəmiyyətin, həm xəstəxanaların, həm də sığorta şirkətlərinin münasibətləri sivil formada qurulmalıdır və məlumatlılıq səviyyəsi artırılmalıdır. Sevindirici hal budur ki, son zamanlar dövlətimizin qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən siyasət artıq öz bəhrələrini verməkdədir. Prezident İlham Əliyevin “Ölkə iqtisadiyyatının əsas hissəsi qeyri-neft sektorunun üzərinə düşməlidir” tapşırığı uğurla həyata keçirilməkdədir. Bu baxımdan da səhiyyə sahəsindəki islahatlar və əhaliyə tibbi xidmətin göstərilməsinin, inkişaf etmiş ölkələrdəki kimi yüksək səviyyəyə qaldırılması dövlət siyasətimizin prioritet istiqamətlərindən birinə çevrilib. Yüksək səviyyənin təmin edilməsinə hesablanan bu dövlət idarəsi, səhiyyə sahəsində davamlı islahatlara da güclü təkan verir. Hazırda bu istiqamətdə müəyyən ciddi addımlar atılır. Belə ki, 1999-cu ildə Milli Məclis tərəfindən “İcbari tibbi sığorta” haqqında qanun qəbul edilib. 2007-ci ildə isə həmin qanuna əlavə və dəyişikliklər olunub. Prezident İlham Əliyevin 4 aprel 2014-cü ildə “Tibbi sığorta haqqında” qanunda dəyişiklik edilməsi barədə qərar əsasında 16 fevral 2016-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb. Agentliyin maliyyə mənbəyi isə respublikanın dövlət büdcəsinin maliyyə vəsaiti, icbari tibbi sığorta haqları, büdcədənkənar vəsaitlər, kreditlər və qrantlar, ianələr hesabına formalaşır. Bu agentliyin əsas vəzifələrindən biri də icbari tibbi sığorta olunanlara müvafiq proqrama uyğun tibbi yardım göstərilməsi üçün səhiyyə müəssisələri ilə müqavilələr bağlayıb, onlara keyfiyyətli xidmətin yüksəldilməsi üçün strategiyalar həyata keçirməkdir. Eyni zamanda da tibb müəssisəsinin və ya tibb işçisinin təqsiri üzündən sığorta olunana vurulmuş zərərin ödənilməsi məqsədilə agentliklərə məhkəməyə müraciət etmək hüququ verilir. Agentlik, həmçinin sığorta olunanlara göstərilən tibbi xidmətlərin həcminin və keyfiyyətlərinin monitorinqini həyata keçirmək hüququna da malikdir.

**- Bu baxımdan, tibbi sığorta şirkətləri öz işlərini istənilən səviyyədə görə bilirmi?**

- Azərbaycanda tibbi sığorta şirkətlərinin zəif olması hələ də bu və ya digər formada qeyd etdiyimiz səviyyəyə çatmaq baxımından müəyyən maneələr yaradır. Əsas problem fərdin tibbi sığorta bazasının hansı şəkildə formalaşa bilməsindən asılıdır. Yəni istənilən şəxsin sığorta paketinin ödənilməsi və ya maliyyə mənbəyinin tapılması müəyyən yeni strategiyaların yaranmasını zəruri edir. Belə ki, sovet səhiyyə sistemindən qalma tibb müəssisələrinin bazasında yenidən strukturlaşdırılma aparılmasına böyük ehtiyac var. Yəni müasir idarəetmə mexanizmlərində müstəqil maliyyə fəaliyyətlərini formalaşdıra biləcək hüquqi şəxs statusunda yeni müəssisələrin yaranması mümkündür. Payçı mülkiyyətlərə “Azərbaycan Respublikası Səhmdar Cəmiyyətləri” haqqındakı qanuna uyğun olaraq müasir tələblərə cavab verən tibb müəssisələri təsis etmək olar. Tibb müəssisələrinin təsisində və ya yenidən strukturlaşdırılmasında idarəedilmə paketi mənsub olduğu profil təşkilatlarına və ya tabeçiliyindəki tibb müəssisəsi işçilərinin əldə edə biləcək səhm paketləri hesabına özünüidarəetmə hüququ statusuna malik kollektiv təsərrüfatlara aid ola bilər.

Bundan başqa, tibb müəssisələrinin maddi-texniki bazasının təmin edilməsi üçün və həmçinin tibbi xidmətin səviyyəsinin yüksəldilməsi baxımından kənardan “intervent investisiya” cəlb oluna bilər. “İntervent investisiya” tibb müəssisəsinin səhmlərini əldə etməklə və ya müəyyən dövr həcmində gəlir fondundan pay almaqla iştirak edə bilər. Bu, qarşılıqlı razılaşmalar nəticəsində idarəetmə paketinə malik tərəflə intergent subyekti arasında həll edilir.

**- Tibb müəssisələri öz maliyyə imkanlarını necə gücləndirə bilər?**

- Tibb müəssisəsi əgər müstəqil hüquqi şəxsdirsə və ya payçı səhmdar cəmiyyətdirsə, idarəetmə paketini əlində saxlayan tərəf və ya tərəflər maddi-texniki bazanın təkmilləşdirilməsi, əhaliyə tibbi xidmətin səmərəliliyinin artırılması baxımından lizinqlər şəklində banklarla əməkdaşlıq edə bilər. Bank orada payçı tərəf kimi və ya gəlir fondundan müddətli emisiyalar əldə edə bilər.

Tibb müəssisələri Azərbaycan qanunları çərçivəsində beynəlxalq strukturlardan və ya beynəlxalq maliyyə mərkəzləri tərəfindən subsidiv investisiyaların əldə olunması və bu istiqamətdə qarşılıqlı xidmət göstərməsi baxımından vacib məsələlərdən biridir. Bütün bunlar Azərbaycan səhiyyəsində həm özəl, həm də dövlət sektorunun inkişafını təmin edəcək. Bu cür sistemin tətbiqi, eyni zamanda tibbi personalın əməkhaqlarının yüksəlməsinə səbəb olacaq. Əlbəttə, bu tip tibb müəssisələrini idarə edənlərin əsas qayəsi o olacaq ki, sağlam rəqabətə tab gətirmək üçün yüksək peşəkar mütəxəssisləri cəlb etsinlər. Həmçinin marketoloji xidmət göstərib ən müasir avadanlıqlarla təmin edərək yüksək gəlir əldə etməyi düşünəcəklər. Bu komponentləri özündə birləşdirən tibb müəssisəsi səviyyəli xidmət göstərərək, daha çox gəlir əldə edərək tibb personalına yüksək əməkhaqları verəcək. Əks təqdirdə yaxşı xidmət göstərməyən tibb müəssisələrinə müraciətlərin sayı azalacaq və sığorta şirkətləri də onlardan üz döndərəcək.

**- Bəs tibbi sığorta bazarını necə inkişaf etdirmək olar?**

- Tibbi sığorta bazarının güclənməsi üçün özəl sektorda tibbi sığorta şirkətlərinin inkişafına xüsusi ehtiyac var. İkinci isə, tibb müəssisələrinə müstəsna rəqabət çox olduğundan, bəzən merkantin maraqlar işin içinə girir, çünki icbari tibbi sığorta şirkətləri ilə müqavilə bağlayan idarə və müəssisələr sığorta şirkətləri tərəfindən onlara təqdim olunmuş tibb müəssisələri çərçivəsində seçim edə bilir. Amma elə tibb müəssisələri var ki, sığorta şirkətlərinin siyahısında təmsil olunmuş tibb müəssisələrindən qat-qat üstün tibbi personala və maddi-texniki bazaya malik olur.

Vəziyyətdən çıxış yolu kimi tibb müəssisələri özləri müstəqil olaraq müəssisənin marketinqini həyata keçirmək imkanına malik olmalıdır. Ola bilər ki, mövcud qanunlar çərçivəsində tibb müəssisələri xidmət paketlərini müəssisə və təşkilatlara təqdim edir. Müəssisə və təşkilatlar da öz əməkdaşlarına tibbi xidmətin göstərilməsi müqaviləsini ya birbaşa, ya da tibbi sığorta təşkilatları vasitəsilə həyata keçirmək imkanını əldə edir. İkinci bir tərəfdən isə bu yanaşma müstəqil hüquqi statusa malik və ya payçı səhmdarlardan təsis olunmuş tibb müəssisələrinin fəaliyyət prinsiplərindən irəli gələrək tibbi sığorta şirkətlərinə müraciət etmədən alternativ maliyyə mənbəyini formalaşdıra bilər. Eyni zamanda qarşılıqlı anlaşmalardan irəli gələn xəstələrin müayinə və müalicəsi zamanı üzə çıxa biləcək problemli hüquqi vəziyyətlə əlaqəli sığorta şirkətləri ilə hissəvi paketli müqavilə imzalaya bilər. Bunun üçün də tibb müəssisəsi müəyyən sığorta ödəmələrini sığorta şirkətlərinə ödəyir. Hissəvi paketli müqavilə 3 tərəf arasında (tibb müəssisəsi, xidmət haqqını ödəyən təşkilat və sığorta şirkəti) razılaşdırılmış formada imzalanaraq həyata keçirilə bilməlidir. Həmçinin könüllü sığorta haqları və ya depozit tibbi sığorta ilə hər bir şəxs özünü və ailə üzvlərini müstəqil qaydada sığortalaya bilər. Ənənəvi tibbi sığortada şirkət hər əməkdaşına görə müəyyən məbləğ ödəyə bilsə (sığorta haqqı), onun müqabilində müəyyən çərçivədə tibbi xidmətlər almaq hüququna malik olurdu (sığorta məbləği). Depozit tibbi sığortada isə heç bir limit yoxdur, çünki bütün tibbi xərclər müraciət edənin öz hesabından ödənilir. Yalnız bundan sığorta şirkəti müəyyən faizlərini götürür. Depozit tibbi sığortanın əsas üstünlüyü isə həyata keçirilən müalicəyə nəzarət etməsidir. Sığorta şirkəti imkan vermir ki, həkim xəstəni lüzumsuz xidmətlərə yönəltsin və şəxsi mənafelərinə görə ucuz dərmanlar əvəzinə, analoji, amma qat-qat baha olan dərmanların təyinatının qarşısını alır. Hissəvi paketli müqavilədə də 3 tərəf arasında (tibb müəssisəsi, xidmət haqqını ödəyən təşkilat və sığorta şirkəti) razılaşdırılmış formada qarşılıqlı öhdəliklər şərtlərində tibbi sığorta şirkətinə həyata keçirilən müalicəyə nəzarət etməsi hüququnun verilməsi psixoloji olaraq balanslaşdırılmış bir situasiya yaradır. Tibbi sığorta təşkilatı xidmət paketinə malik olmaq üçün, müstəqil şəkildə işçilərinə xidmət göstərəcək müəssisə ilə müstəqil müqavilə bağlamış tibb müəssisəsinin qüsurlarını üzə çıxarmaqda maraqlı olur.

**- Sosial müdafiəyə ehtiyacı olan təbəqəyə nə kimi güzəştlər mümkündür?**

- Əgər tibb müəssisəsi payçılardan biri və ya bir neçəsi hüquqi şəxsdirsə, onda o, payçı təşkilatlar qarşısında öhdəliklər götürərək həmin təşkilatın əməkdaşlarına öz gəlir fondundan ayırmalar edərək təmənnasız müayinə və müalicə edilə bilər. Bu, payçılararası razılaşmalarla həyata keçirilə bilir.

Digər intervent investisiya formalarından biri kimi, tibb müəssisələri öz səhmlərini istiqraz vərəqələrinə çevirərək maliyyə mənbəyinin formalaşmasında iştirak edəcək. Yəni bu, istiqrazları əldə edən hüquqi və fiziki şəxslərə müəyyən dövr ərzində və ya həmişəlik təmənnasız xidmət edə bilməsi imkanın yaradılmasıdır.

Tibb müəssisələri sosial cəhətdən müdafiə olunan təbəqəyə xidmət etmək müqabilində idarə və təşkilatlarda çalışan işçilərin məvacib fondundan icbari sığorta təşkilatlarına ayrılan maliyyəni əldə etmək üçün müqavilələr bağlamaq yolu ilə, əhalinin işləməyən təbəqəsinə xidməti üçün isə sosial müdafiə fondları ilə birbaşa müqavilə bağlamaqla öz xidmətlərini həyata keçirmək imkanlarına malik olmalıdır.

***Fuad Hüseynzadə***

## QƏZA NƏTİCƏSİNDƏ AZI 50 MİQRANT HƏLAK OLUB



***Liviya sahilləri yaxınlığında miqrantları daşıyan qayığın batması nəticəsində azı 50 nəfər həlak olub.***

TASS informasiya agentliyi xəbər verir ki, qayıq Liviyadan İtaliyaya doğru hərəkət edirdi. Qəzadan sonra, həmçinin 100-ə yaxın miqrant itkin düşüb. Hələlik 17 nəfəri xilas etmək mümkün olub. Liviyanın sahil mühafizəsi miqrantları daşıyan ümumilikdə üç qayıq aşkarlayıb.

Liviya hakimiyyət orqanları hazırda ölkə ərazisində 700 minədək qaçqının olduğunu bildirir.

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına əsasən, 2017-ci ildə Aralıq dənizi vasitəsilə Avropaya gələn mühacir və qaçqınların sayı 171 min nəfərdən çox olub. Həmçinin köç zamanı 3 mindən çox insan həyatını itirib. İtaliya ötən il təxminən 119 min mühacir qəbul edib.

## 40 ŞAGİRDİ APARAN QAYIQ ÇEVRİLİB

***Hindistanın qərb sahilləri yaxınlığında şagirdləri daşıyan qayığın qəzaya uğraması nəticəsində azı 4 uşaq həlak olub.***



Hindistanın ANI agentliyinin yaydığı məlumata görə, insident yanvarın 13-də səhər saatlarında ölkənin qərbində yerləşən Maharaştra ştatının Dahanu şəhəri sahillərində qeydə alınıb. Qəza zamanı qayıqda 40 məktəbli olub. Onlardan 25-i xilas edilib.

Hazırda hadisənin baş verdiyi ərazidə axtariş-xilasetmə əməliyyatı aparılır.

## BALIQÇI QAYIĞI AŞIB

***Çinə məxsus balıqçı qayığı Cənubi Koreyanın qərb sahil suları yaxınlığında aşıb.***

Baenqyonq adası yaxınlığında aşmış qayığı Cənubi Koreya sahil mühafizə xidmətinin patrul qayığı yanvarın 20-də gecə saat 12:00 radələrində aşkar edib. Dərhal axtarış-xilasetmə işlərinə başlanılıb. Aşmış qayıq adanın sahilinə təxliyə edildikdən sonra içəridə 3 heyət üzvünün cəsədi tapılıb. Qayıqdakılardan kiminsə xilas olması barədə heç bir iz yoxdur.



Hazırda qayığın aşdığı yerdə Cənubi Koreya sahil mühafizə xidmətinin 3 gəmisi, bir xilasetmə qayığı və 2 təyyarə axtarış işlərini davam etdirir. Əlverişsiz hava şəraiti axtarış işlərini çətinləşdirib.

Cənubi Koreya tərəfi qayıqda olanların sayının dəqiqləşdirilməsi üçün Çin tərəfinə müraciət edib.

## ABŞ HƏRBİ DƏNİZ QÜVVƏLƏRİ YAPONİYAYA YENİ UNİVERSAL DESANT GƏMİSİ YERLƏŞDİRİB

***ABŞ hərbi dəniz qüvvələri Yaponiyanın cənub-qərbinə göyərtəsində F-35B qırıcıları olan yeni universal desant gəmisi yerləşdirib.***




NHK telekanalı xəbər verir ki, ABŞ hərbi dəniz qüvvələrinin “Wasp” adlı gəmisi Naqasaki prefekturasının Sasobe limanına yanvarın 14-də səhər saat 9:00 radələrində yan alıb. Onun ABŞ hərbi dəniz qüvvələrinin “Bonhomme Richard” universal desant gəmisini əvəz etdiyi bildirilir.

“Wasp” gəmisinin uzunluğu 250 metr, su tutumu 40 min tondur. Gəminin heyət üzvlərinin sayı 1100 nəfər təşkil edir. Bununla yanaşı, gəmi 1600 dəniz piyadasını da göyərtəsinə qəbul edə bilər.

Yeni gəminin Yaponiya sahillərinə yan alması Şimali Koreyanın nüvə-raket proqramlarının davam etdiyi və Çinin Asiya-Sakit okean regionunda fəallaşdığı bir vaxta təsadüf edir.

ABŞ hərbi dəniz qüvvələrinin yaydığı məlumata görə, “Wasp” gəmisinin Yaponiyaya yerləşdirilməsi həmin regionda ən müasir hərbi vasitələrin yerləşdirilməsinə yönələn uzunmüddətli ümumi planın tərkib hissələrindən biridir.

***Vüqar Ağayev***



## PARTLAYIŞA YANACAQ SIZMASI SƏBƏB OLUB

***Tailandın cənubundakı Phiphi adası yaxınlığında 27 çinli turistin və 5 yerli sakinin olduğu sürətli qayıqda baş verən partlayışda bir nəfər ölüb, 16 nəfər yaralanıb.***

“China Daily” qəzeti xəbər verir ki, yerli vaxtla 13:00 radələrində baş verən hadisədə ölən şəxs heyət üzvüdür.

Bildirilir ki, partlayışa yanacaq sızması səbəb olub. Belə ki, kapitan mühərriki yoxlamağa gedərkən partlayış baş verib, ardınca alov başlayıb. Sərnişinlər və heyət üzvü suya tullanaraq, xilasedici vasitələrdən istifadə etməklə suyun üzündə qalmağa çalışıblar. Köməyə gələn gəmilər heyət üzvlərini və çinli turistləri xilas ediblər.

Yaralılar xəstəxanalara yerləşdirilib. Hazırda axtarış-xilasetmə işləri aparılır.

***Şahin Cəfərov***

## TİOMAN ADASINDAKI TURİSTLƏR GƏMİ İLƏ TƏXLİYƏ EDİLƏCƏK

***Malayziya Tioman adasında yaranan əlverişsiz hava şəraiti ilə əlaqədar oradakı turistləri təxliyə etmək üçün hərbi dəniz qüvvələrinin gəmisini göndərib.***

"The Star" qəzeti xəbər verir ki, gəmi adadakı 90-dan çox adamı təxliyə edəcək.

Nəşrin məlumatına görə, artıq bir neçə gündür ki, Tioman adasında nəhəng dalğalarla müşayiət olunan pis hava şəraiti davam edir. Ümumilikdə 54 turist və 39 malayziyalı yanvarın 11-dən adadadır.

Qeyd olunur ki, burada yağışlar fəsli oktyabrda başlayaraq martadək davam edir. Yerli qanunverici orqanın nümayəndəsi bildirib ki, hər il yerli hakimiyyət orqanları turistlərə adaya səfərin təhlükəli olması barədə xəbərdarlıq edir. Adaya gedən turistlər bərə ilə qayıtmaq imkanı olacağına inanırlar. Bu il bərə olmadığına görə, turistlər adanı tərk edə bilməyiblər.

***Vüqar Ağayev***



## ƏRƏB DƏNİZİNDƏ GÖYƏRTƏSİNDƏ NEFTÇİLƏR OLAN HELİKOPTER QƏZAYA UĞRAYIB



***Hindistanın qərb sahilləri yaxınlığında göyərtəsində 7 nəfərin olduğu helikopter qəzaya uğrayıb.***

Hindistan Hərbi Dəniz Qüvvələrinin Twitter səhifəsində insidentin yanvarın 13-də səhər saatlarında baş verdiyi bildirilir. Helikopterdə iki pilotdan başqa, Ərəb dənizində yerləşən buruqların birinə yollanan Hindistanın neft və təbii qaz üzrə komissiyasının 5 əməkdaşı da olub.

Helikopter havaya qalxdıqdan bir qədər sonra onunla əlaqə kəsilib. Xilasedicilər hadisədən bir neçə saat sonra Mumbay şəhərindən 50 kilometr uzaqlıqda helikopterin qalıqlarını aşkarlayıblar.

Hazırda qəza nəticəsində 4 nəfərin həlak olduğu təsdiqlənib, 3 nəfərin taleyindən isə hələlik xəbər yoxdur. Qəzanın səbəbləri məlum deyil.




## D VİTAMİNLİ SU HAZIRLANIB

***Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Agthia Group" şirkətlər qrupu dünyada ilk dəfə olaraq tərkibində D vitamini olan içməli su istehsalına başlayıb.***

AZƏRTAC Əmirliklərin KİV-lərinə istinadla xəbər verir ki, dünyada yeganə olan D vitaminli bu suyun tərkibində qatqı, dadverici və boyaq maddələri yoxdur. Tədqiqatlara görə, BƏƏ əhalisinin 78 faizi D vitamini azlığından əziyyət çəkir ki, bu da bəzi xroniki və infeksion xəstəliklərin inkişaf riskini artırır.

"Al Ain Vitamin D" adlanan suyun bir şüşəsinin həcmi 500 ml, dəyəri isə 2 dirhəmdir. Vitaminlərlə zəngin olan bu suya artıq BƏƏ-nin supermarketlərində rast gəlmək mümkündür.



## AMERİKALI RƏSSAM XÜSUSİ RƏNG İCAD EDİB

***ABŞ-ın Sietl şəhərində yaşayan rəssamlardan biri rəngin xüsusi tərkibini icad edib.***

"billionnews.ru" saytı bildirir ki, həmin rənglə asfalt üzərinə yazılan yazı yaxud çəkilən şəkillər yalnız yağış yağdığı və ya üzərinə maye töküldüyü halda görünür.

Şəkillər ilk iki həftə ərzində aydın görünür, 4 aydan bir ilədək isə asfaltda qalaraq silinmir.

## BURAXILIŞ, QƏBUL VƏ SINAQ İMTAHANLARININ TARİXLƏRİ MÜƏYYƏNLƏŞDİRİLİB

***Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən yaxın aylar ərzində keçirilməsi nəzərdə tutulan, ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanlarının, magistratura və rezidenturaya qəbul imtahanlarının birinci mərhələsinin, ümumi orta (9 illik) təhsil bazasında təhsilalanların buraxılış imtahanlarının birinci mərhələsinin, sınaq imtahanlarının tarixləri müəyyənləşdirilib.***




DİM-dən bildiriblər ki, ali təhsil müəssisələrinə II və III ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanı mayın 13-də, I və IV ixtisas qrupları üzrə isə mayın 20-də keçiriləcək.

Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olunmaq istəyənlər üçün sınaq imtahanlarının aprelin 1-də, 15-də, 29-da və iyunda (1 dəfə) keçirilməsi nəzərdə tutulur.

Ali təhsil müəssisələrinə, ümumi və tam orta (9 illik və 11 illik) təhsil bazasında kolleclərə qəbul olunmaq istəyən və qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün "Azərbaycan dili" fənni üzrə birinci imtahan aprelin 22-də, ikinci imtahan isə iyunun 10-da keçiriləcək.

Ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının I mərhələsi fevralın 25-də, rezidenturaya qəbulun birinci mərhələsi isə aprelin 1-də keçiriləcək.

Yanvarın 19-da və 27-də rezidenturaya qəbul olunmaq istəyənlər üçün elektron sınaq imtahanı (baza fənləri üzrə), fevralın 4-də isə magistraturaya qəbul olunmaq istəyənlər üçün kağızdaşıyıcılar vasitəsilə sınaq imtahanı (I mərhələ üzrə) keçiriləcək.

Bakı şəhəri və bölgələr üzrə ümumi (9 illik) orta təhsil bazasında təhsil alanlar üçün buraxılış imtahanlarının birinci mərhələsi martın 4-də, 11-də və 18-də təşkil olunacaq.

Ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olunmaq istəyən (həmçinin eksternat qaydasında buraxılış imtahanı verən) əvvəlki illərin məzunları üçün qəbul imtahanlarının birinci mərhələsi aprelin 8-də keçiriləcək.

Peşə liseylərinin şagirdləri (11-ci sinif) üçün buraxılış imtahanı martın 18-də keçiriləcək.

Qeyd edək ki, DİM tərəfindən keçirilən imtahanlar kütləvi xarakter daşıdığı üçün tədbirlərin qrafiki bir neçə dövlət orqanı ilə birgə müzakirə olunur, razılaşdırılır və yekun qərar qəbul edildikdən sonra ictimaiyyətə elan olunur. Digər imtahanların da qrafiki müəyyənləşdirildikdən sonra KİV-lərdə məlumat veriləcək və Mərkəzin saytının "Təqvim" bölməsinə əlavə ediləcək. Vətəndaşlara saytın bu bölməsini mütəmadi izləmək tövsiyə olunur.

## YAPONİYA ŞİMALİ KOREYAYA TƏTBİQ EDİLƏN SANKSİYALARIN İCRASINA NƏZARƏT ÜÇÜN ÖZ GƏMİLƏRİNİ SARI VƏ YAPON DƏNİZLƏRİNƏ GÖNDƏRİR

***Yaponiya özünümüdafiə dəniz qüvvələrinin komandanlığı ötən ilin sonundan başlayaraq ABŞ-ın sorğusuna əsasən Şimali Koreyaya tətbiq edilən sanksiyaların icrasına nəzarət üçün öz gəmilərini Sarı və Yapon dənizlərinə göndərir.***




Kyodo agentliyi xəbər verir ki, məqsəd açıq dənizdə əcnəbi tankerlərdən Şimali Koreya gəmilərinə neftin vurulmasının qarşısını almaqdır.

Məlumatda qeyd edilir ki, əməliyyat özünümüdafiə qüvvələrinin beynəlxalq sularda müşahidə aparması qaydalarına müvafiq olaraq keçirilir. Yaponiyanın patrul təyyarələri açıq dənizdə şübhəli gəmilər aşkar etdikdə məlumatı gəmilərə ötürür və gəmilər qeyd edilən əraziyə doğru hərəkət edir.

Şübhəli gəmiləri yoxlamaq yapon özünümüdafiə qüvvələrinin səlahiyyətinə aid olmadığına görə, əldə edilən məlumatlar, foto və digər informasiyalar ABŞ tərəfinə göndərilir. Bundan əlavə, həmin məlumatlar yanvarın 16-da Vankuverdə Kanada və ABŞ-ın sədrliyi ilə keçiriləcək Şimali Koreya üzrə nazirlər görüşünə təqdim ediləcək.

Kyodo agentliyi yazır ki, Yaponiya hökumətinin rəyinə əsasən, bu nəzarət təkcə Şimali Koreyaya deyil, eyni zamanda, Tokio və Vaşinqtonun qənaətinə görə, Pxenyana müəyyən kömək edən Çin və Rusiyaya da təsir göstərəcək.

***Vüqar Ağayev***

## İÇMƏLİ SUYUN İSTİFADƏYƏ YARARLILIĞINI YOXLAYAN TEST HAZIRLANIB

***Böyük Britaniyanın Bat Universitetinin ekspertləri tərəfindən içməli suyun istifadəyə yararlılığını yoxlayan birdəfəlik test hazırlanıb. Mütəxəssislər bu testin Afrika ərazisində yaşayan minlərlə insanın həyatını xilas edəcəyini vurğulayırlar.***



Rusiyanın "Aktualnıye novosti" saytı xəbər verir ki, yeni işləmə qrafit elektrodlu və elektrikkeçirici bakteriya təbəqəli kağızı xatırladır. Zolaq öz rəngini zəhərli kimyəvi maddə, ağır metal, herbisid və digər gözlə görünməyən əlavələrlə reaksiya zamanı dəyişir. Lakmus kağızına bənzəyən testerin rənginin dəyişməsi suyun tərkibindəki zərərli qatqıların mövcudluğundan xəbər verir.

"WaterAid"in apardığı qiymətləndirməyə əsasən indiki dövrdə Yer kürəsinin 850 milyon sakini təmiz su çatışmamazlığından əziyyət çəkir. Bu cür testləri inkişaf etmiş ölkələrin ərazisində də tətbiq etmək mümkündür. Test ucqar yaşayış ərazilərində suyun keyfiyyətini müəyyənləşdirməyə imkan verəcək, həmçinin turist və xilasedicilərə içməli su ehtiyatlarının çirklənməsinə səbəb olan fövqəladə hallar zamanı kömək göstərəcək.

## BÜTÜN DÖVRLƏRİN ƏN YAXŞI 100 FİLMİ

***"IndieWire" portalı bütün dövrlərin ən yaxşı 100 filminin siyahısını dərc edib.***



Reytinq "Rotten Tomatoes" saytının istifadəçilərinin rəyi əsasında tərtib olunub.

Siyahıya ən azı 40 resenziya yazılan ekran əsərləri daxil edilib.

Reytinqin lideri rejissor Viktor Fleminqin "Oz Ölkəsinin Sehrbazı" (1939) musiqili filmidir. Hesabında iki "Oskar" mükafatı olan bu ekran əsəri 1998-ci ildə ən yaxşı 10 Amerika filmi siyahısına daxil olub.

İstifadəçilər ikinci yerə Orson Uellsin "Vətəndaş Keynə" (1941) filmini layiq görüblər. Bu əsər mütəmadi olaraq dünyanın kino tarixində ən çox diqqət çəkən filmlər siyahısına daxil olur. Britaniyanın "Sight and Sound" jurnalının reytinqində bu film ardıcıl olaraq 5 dəfə birinci yeri tutub.

Siyahıda üçüncü mövqedə Cordan Pilin "Uzaq ol" qorxu filmi qərarlaşıb. Onluğa, həmçinin "Quduz Maks: qəzəb yolu" (2015, Corc Miller) və "Inside Out" (Qıfılbənd) cizgi filmi (2015, Pit Doker, Pixar) də daxildir.

## YARIZARAFAT, YARIGERÇƏK

**Həqiqəti deyəndə başqalarının xoşuna gəlmir, deməyəndə isə özümün.**

**Həyatdan bir əsr geridə qalanlar niyə bir əsr sonra üçün də var-dövlət yığırlar?**

**Anlamaq istəməyəni anlatmaq çətindir.**

**Razıyam, mən zəmanə adamı deyiləm. Mən nə vaxt kiminsə adamı oldum ki?**

**Yaxşı heç nə düşünməyənlərin nə düşündükləri bəziləri üçün niyə maraqlıdır?**

**Çox şeydən boyun qaçıra bilməyənin yaxası əllərdə qalar.**

**Yaxşılar üçün ən ağır cəza pisləri mükafatlandırmaqdır.**

**İş görməyi bacarmayanları buyurmağı yaxşı bacardıqları üçün qabağa çəkirlər?**

**Məndən sənə dost çıxmaz. Heç özümə çıxmadı.**

**Hətta ayaqlarınız ağrıyanda da öz yerişinizi yeriyin.**

**Deyəsən uşaqlardan çox, satqınların nazı ilə oynayırıq axı...**

**Bağışlamağa heç nəyim yoxdur. Məni bağışlayın.**

**Onlarınkı tutar. Biri həqiqəti demək, digəri isə eşitmək istəmir.**

**Bəzi səhvlərimiz başqalarına bizə gülmək ixtiyarı verir.**

**Vicdanı olana çox qanun lazım deyil.**

**Vicdanla yaşayanlar bir çox qanunlardan xəbərsiz olanda belə qanun pozuntusuna yol vermirlər.**

**Uşaqlar valideynlərsiz də axmaq böyüyə bilərlər. Valideynlərin borcu onları ağıllı böyütməkdir.**

**Mən bu dünyaya məni sevməyənlər üçün göz dağı kimi gəlmişəm.**

**Az anlayanın problemi də az olur.**

**Kimi insan yerinə qoyursan, niyə dərhal özünü dağ başına qoyur?**

**Sən demə, hörmət xətrinə arxa çevirmədiyim adamlar arxadan vurmaq üçün fürsət gözləyirlərmiş.**

**Doğru cavabı olmayan üçün sualın doğru qoyulub-qoyulmamasının nə fərqi?**

**Enməyin ən pisi kiminsə səviyyəsinə enməkdir.**

**Kimlərinsə özlərini dahi saymaları ilə hesablaşmayanda, özlərini Allah hesab edirlər.**

**Gücdən ağılla istifadə etməyəndə faciə baş verir.**

**Yaltaqlar başqa cür yaşamağın mümkünlüyünü heç düşünmürlər də.**

**Heç kəslə düşmənçilik etmə. Amma hamı ilə dost olmağa çalışmaq da özünü aldatmaqdır.**

**Bəziləri niyə ağıllarına dua əvəzinə, ağıllarına gələni yazırlar?**

**Görəsən mənə də vəzifə versələr, dərhal "professor" ola bilərəm?**

**Hava soyuq olmayanda da bəzi adamların faydalı iş əmsalı sıfırdan aşağı olur.**

**Bir o qalıb ki, axmaqların axmaq hərəkətlərinə görə də biz üzr istəyək.**

**Sizə elə gəlmir ki, ən çox düşmənlərimizi sevindiririk.**

**Sualları çox sevirəm. Məni axtarışlara məcbur edən sualları.**

**Bir az ehtiyatlı olun. Ətraf tülkülərlə doludur.**

**Nə qədər narahat olsa da, bu yolu sonunda işıq gördüyüm üçün seçdim.**

**Xəttə qalsa, ən gözəl alın yazısı mənim olmalıydı.**

**Əvvəllər bəziləri özlərini daha çox kolxoz sədri kimi aparırdı, indi professor kimi aparırlar.**

**Yaltaqların çox olduğu yer yükü çox olan gəmiyə bənzər. Hər an bata bilər.**

**Bəzilərinin imkanı olsa imkansızlara nəfəs almağa da imkan verməzlər.**

**Adətən iki adamın savaşı araqarışdıranın xeyrinə bitir.**

**Bəzi yerlərdə az qalıb ki, ikini ikiyə vuranda dörd eləməsin.**

**Yaxşı işlərimizdən "bixəbər" olanlar nə vaxtsa pis iş görəcəyimizə ümid edirlər?**

**İnsan yarandığı ilk günlərdən yükdaşıma mövcuddur:kim isə kiminsə yükünü daşıyır.**

**Heç nə etməyən daha çox səhvə yol verir.**

**Bədbəxtlik heç vaxt qapını döymür. O, içəri soxulur.**

**Can, ey Həqiqət! Heç kimə lazım deyilsən?**

**Əsl marafon yarışıdır:harda pul görürlərsə, ora qaçırlar.**

**İş deyəndə gözləri kor olanların mükafat deyəndə gözləri niyə dörd olur?**

**Görəsən qulaqlarımı da İslam qaydalarına uyğun kəsirlər?**

***Rasif TAHİROV***

## 2018 FORMULA 1 AZƏRBAYCAN QRAN PRİ YARIŞI İLƏ ƏLAQƏDAR VİZA PROSEDURLARI SADƏLƏŞDİRİLƏCƏK



***Prezident İlham Əliyev 2018 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən Azərbaycanda keçiriləcək 2018 Formula 1 Azərbaycan Qran Pri yarışı ilə əlaqədar ölkəmizə gələn və bu Sərəncamda göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2018-ci il martın 15-dən mayın 15-dək Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrində viza ala bilərlər.

Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilir: Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən kart və ya digər sənəd, Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən kart, 2018 Formula 1 Azərbaycan Qran Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

## AZƏRBAYCAN ATLETİ "KULDİGA CATHERİNES CUP" BEYNƏLXALQ TURNİRİNİN QIZIL MEDALINA SAHİB OLUB

***Latviyada atletika üzrə "Kuldiga Catherines Cup" beynəlxalq turniri keçirilib.***



Səkkizinci dəfə təşkil olunan yarışda ölkəmizi 60 metr məsafəyə sədlərlə qaçış yarışlarında Rahib Məmmədov təmsil edib.

Məşqçi Elvin Əliyevin rəhbərliyi altında mübarizə aparan atletimiz 8 saniyə nəticə ilə turnirin qızıl medalına sahib olub.

İlk üçlüyü litvalı idmançılar Saulius Rapolas və Vrasinskas Martinas tamamlayıblar.

Qeyd edək ki, turnirdə 17 ölkədən 200-dən artıq atlet qalib adı uğrunda yarışıb.

## FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATININ KUBOKU FEVRALIN 9-DA BAKIYA GƏTİRİLƏCƏK

***"Coca-Cola" və AFFA futbol üzrə dünya çempionatının kubokunu Azərbaycana gətirir.***




AFFA xəbər verir ki, "Coca-Cola" şirkəti dünya çempionatının kubokunu dördüncü dəfə dünya turuna götürür və futbol dünyasının ən ali mükafatını Azərbaycan azarkeşlərinə göstərmək üçün fevralın 9-da kuboku Bakıya gətirəcək. Kubokun Azərbaycana səfəri "Coca-Cola" şirkətinin bu ölkədə uzunmüddətli tərəfdaşı olan AFFA ilə birgə əməkdaşlığı çərçivəsində təşkil olunur.

"Coca-Cola" tərəfindən təşkil olunan "FIFA dünya çempionatı kubokunun turu" milyonlarla azarkeşə dünyanın ən böyük idman hadisəsi olan futbol üzrə 2018-ci il dünya çempionatının bir hissəsi olmaq və bu andan zövq almaq imkanı verir. Bu möhtəşəm beynəlxalq turu təşkil etməklə "Coca-Cola" və FIFA bütün futbolsevərləri dünya kubokunun qalibinə təqdim edilən mükafatın canlı şahidi olmağa dəvət edirlər. Bu hadisə futbolun ən möhtəşəm simvolunu görmək və bunun sevincini yaşamaq üçün minlərlə azarkeşlərin həyatında yeganə fürsət olacaq.

"Coca-Cola" dünyada milyonlarla insanın ən sevilən idman növünə - futbola sevgisini dəstəkləyir və paylaşır. Futbol üzrə dünya çempionatlarının tərəfdaşı olmaqla yanaşı, "Coca-Cola" milli futbol federasiyaları, o cümlədən AFFA ilə əməkdaşlıq edərək, Azərbaycanda da minlərlə yeniyetmənin futbol arzularının reallaşmasına töhfə verir.

"Coca-Cola" şirkətinin Qafqaz və Mərkəzi Asiya regionu üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya meneceri Aleksandra Akkirman deyib: "Biz dünya kubokunu fevralın 9-da Azərbaycana gətirməyi planlaşdırırıq. Bu kubok adi mükafat deyil, bu, həm də idman aləminin ən məşhur kuboku və insanları birləşdirən bir rəmzdir".

"İdman dünyasında FIFA dünya kubokundan daha çox istənilən və əlamətdar bir mükafat yoxdur. Bu Kubok insanları birləşdirən bir qüvvədir və bunun əhəmiyyətini hər kəs dəyərləndirir. Kuboku dünya futbol azarkeşlərinə təqdim etmək üçün "Coca-Cola" ilə yenidən əməkdaşlıq etməyə çox şadıq", - deyə FIFA-nın prezidenti Canni İnfantino qeyd edib.

FIFA dünya kuboku fevralın 9-da Heydər Əliyev Beynəlxalq Aeroportuna gətiriləcək. Yerli KİV nümayəndələri hava limanında mətbuat konfransında iştirak etmək üçün dəvət olunacaq və onlara mükafatı canlı görmək imkanı veriləcək. Sonra mükafat "Gənclik Mall" ticarət mərkəzinə gətiriləcək ki, burada şəhərin sakinləri və qonaqları dünya çempionatının əsas mükafatı ilə şəkil çəkdirə biləcəklər.

Tur barədə məlumat verən AFFA-nın baş katibi Elxan Məmmədov bildirib: "Dünya kubokunu yaxından görmək istənilən futbol azarkeşinin ən böyük arzularından biridir. "Coca-Cola" şirkəti və FIFA kubokun dünya turunu təşkil etməklə dünyanın müxtəlif ölkələrindəki çoxsaylı azarkeşlərə böyük sevinc bəxş edir. Tədbirin Azərbaycanda da keçirilməsi futbolun təbliğı və azarkeş marağı baxımından xüsusi əhəmiyyət daşıyır. Çox şadıq ki, "Coca-Cola" şirkəti ilə AFFA arasında uzunmüddətli və çoxşaxəli əməkdaşlıq mövcuddur. İnanırıq ki, birgə həyata keçirəcəyimiz layihələr hər zaman uğur qazanacaq".

Ötən ilin sentyabrında Rusiyada start götürən tur altı qitədən 50-dən çox ölkəni əhatə edəcək və doqquz ay ərzində 126 min kilometr məsafə qət edən kubok səyahətini futbol üzrə 2018-ci il dünya çempionatında başa vuracaq.

"Coca-Cola" şirkəti 1974-cü ildən FIFA-nın korporativ tərəfdaşıdır və 1978-ci ildən dünya çempionatının rəsmi sponsorudur. "Coca-Cola" 1950-ci ildən etibarən futbol üzrə hər bir dünya çempionatının stadionlarında reklam yerləşdirir və bütün səviyyələrdə futbolu dəstəkləyir. "Trophy Tour" artıq dördüncü dəfədir FIFA və "Coca-Cola" şirkətinin birgə səyi ilə keçirilir.

Qeyd edək ki, dünya kubokunun əsli mundialın qalibi olan komandaya təqdim olunsa da FIFA-nın sərəncamında qalır. Qızıldan hazırlanmış 6,142 kiloqram ağırlığında olan kubokun kompozisiyası Yer Kürəsini əlləri üzərində saxlayan iki insan fiqurundan ibarətdir. Kubokun orijinal dizaynı 1974-cü ildə yaradılıb. Kubok dünyada ən məşhur və bahalı idman rəmzlərindən biridir. Ona yalnız mükafatın keçmiş qalibləri və dövlət başçıları olmaqla məhdud sayda insan toxuna bilər. Qaydalara əsasən, mükafat FIFA-nın sərəncamında qalır və dünya kubokunun qalib komandası mükafatın əslini müvəqqəti olaraq saxlayır, sonra isə onun replikasını alır. Həmən replika dünya kubokunun qaliblərinin mükafatı adlanır. Qızıl suyuna salınan mükafatın üzərində turnirin adı, çempionatı qəbul edən və qalib ölkələr haqqında məlumat həkk olunur.



## ƏDALƏTLİ OYUN PRİNSİPLƏRİNƏ SADİQ İDMANÇILAR MÜKAFATLANDIRILIB

***Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası 2007-ci ildən etibarən hər il ənənəvi olaraq idman ictimaiyyətinin diqqətini bu sahəyə cəlb etmək, ədalətli oyun prinsiplərini təbliğ etmək və bu prinsiplərə sadiq insanları həvəsləndirmək məqsədilə müxtəlif nominasiyalar üzrə mükafatlandırma mərasimləri keçirir.***

Fərqlənənlər "Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi", "Ədalətli oyun prinsiplərinə sadiq təbliğatçı", "Ədalətli oyun prinsiplərinə sadiq hakim", "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi", "Ədalətli oyun prinsiplərinə sadiq idmançı" nominasiyaları üzrə mükafatlandırılırlar.

Bakıda keçirilən və 20 Yanvar şəhidi Müşfiq İsayevin xatirəsinə həsr olunan sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələr arasında XXI açıq Respublika turnirində bir qrup idman mütəxəssisi Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası tərəfindən təltif olunublar.

Mükafatlar dörd nominasiya üzrə qaliblərə təqdim edilib. "Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi" nominasiyasında Azərbaycan Güləş Federasiyasının birinci vitse-prezidenti Firdovsi Umudov layiq görülüb.

"Ədalətli oyun prinsiplərinə sadiq hakim" nominasiya üzrə Sədi Quliyev (Azərbaycan) və Vahid Temirov (Özbəkistan), "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi" adına Ruslan Şəmilov (Azərbaycan) və Vaşa Kraveişvili (Gürcüstan), "Ədalətli oyun prinsiplərinə sadiq idmançı" moninasiyasında isə Vahid Əlizadə (Azərbaycan) və Andrey Yegerov (Qazaxıstan) mükafatlara layiq görülüblər.

## ZƏHƏRLƏNMƏ HALLARINDA ZAMAN ÇOX BÖYÜK ROL OYNAYIR

***Cəmiyyətdə ağır fəsadlarla nəticələnən dəm qazından zəhərlənmə hallarına mütəmadi olaraq rast gəlinir. Əfsuslar olsun ki, bəzən bu hadisələr bütöv ailənin ölümü ilə də nəticələnir. Səhiyyə və Fövqəladə Hallar nazirliklərinin, eləcə də digər aidiyyəti qurumların profilaktik və maarifləndirmə tədbirlərinin keçirilməsinə baxmayaraq, vəziyyət öz ciddiliyini qoruyur.***



Dəm qazından zəhərlənmə hallarından özünüqoruma, intoksikasiya baş verdikdə onun əlamətləri və təxirəsalınmaz ilkin yardım haqqında Azərbaycan Tibb Universitetinin (ATU) dosenti, həkim-toksikoloq İsmayıl Əfəndiyev universitetin mətbuat xidmətinə məlumat verib.

Həkim deyib: "Son illər Azərbaycanda dəm qazı və yanacaq məhsullarından zəhərlənmə hallarında ötən illərə nisbətən artma müşahidə olunur. Bu vəziyyəti yalnız Azərbaycana şamil etmək düzgün deyil. Belə ki, ABŞ-da hər il dəm qazından 10 mindən çox zəhərlənmə hadisəsi qeydə alınır. Avropa ölkələrində isə bu, alkoqollu içkilərdən zəhərlənmələrdən sonra ikinci yeri tutur.

Dəm qazından zəhərlənmə yüngül, orta və ağır dərəcələrdə olur.

Yüngül dərəcədə qanda karboksihemoqlobinin səviyyəsi 15-30 faiz təşkil edir. Bu zaman ümumi toksiki simptom olaraq başağrısı, qulaqlarda səs, başgicəllənmə, ürəkbulanma, təngnəfəslik, boğazda acışma, quru öskürək, ürək nahiyəsində xoşagəlməz hisslər meydana çıxır. Bu zaman adətən huşun itirilməsi müşahidə olunmur.

Qanda karboksihemoqlobinin səviyyəsi 30-40 faiz olduqda artıq orta dərəcəli zəhərlənmə hesab edilir. Bu zaman yorğunluq, xüsusilə aşağı ətraflarda artan zəiflik, görmə və eşitmədə pozuntular, şüur dolaşıqlığı, ürək ritminin pozulması, döş nahiyəsində ağrılar, qıcolmalar meydana çıxır. Dəm qazından orta dərəcəli intoksikasiyanın fərqləndirici cəhəti qısa müddətlik huşun itirilməsidir. Dərsliklərdə təsvir olunan və qanda karboksihemoqlobinin olması ilə bağlı yaranan dəri və dodaqların albalı-qırmızı rəngə boyanmasına nadir hallarda təsadüf edilir.

Ağır dərəcəli intoksikasiya zamanı qanda karboksihemoqlobinin səviyyəsi 40-50 faizədək yüksəlir. Bu zaman insan koma vəziyyətinə belə düşə bilər. Ağciyərlərdə toksiki pozuntular səbəbindən rabdomioliz sindromunun yaranması mümkündür.

İntoksikasiyanın fəsadlarına gəldikdə isə yüngül dərəcəli zəhərlənmədə belə baş ağrıları və digər simptomlar bir qədər sonra yeni qüvvə ilə təkrar olunur. Bəzi xəstələrdə isə müalicəyə baxmayaraq, təxminən iki həftə sonra gecikmiş nevroloji fəsadlar yarana bilər. Bu, düşüncə qabiliyyətinin və yaddaşın zəifləməsi, baş ağrıları, əzələlərdə zəiflik və əsmə ilə özünü büruzə verən, induksiyalanmış və təxirə salınmış neyropsixi sindromdur.

Bəziləri düşünür ki, dəm qazının spesifik iyi var. Lakin, bu belə deyil, dəm qazının heç bir iyi və rəngi yoxdur.

Zəhərlənmə hallarında zaman çox böyük rol oynayır. Adətən zəhərlənənlər qazın onları "tutduğunu" hiss etdiklərini deyirlər. Lakin, yadda saxlamaq lazımdır ki, zəhərlənmənin birinci simptomlarının hiss edildiyi andan huşun itirilməsinə qədər olan dövr çox qısadır. Bəzən bu, bir dəqiqədən də az ola bilər. Bu səbəbdən də, simptomlar hiss edildikdə həmin yeri dərhal tərk etmək lazımdır.

Zəhərlənmə zamanı ilkin yardım kimi xəstəni dəm qazının çox yığıldığı yerdən təmiz havaya çıxartmaq və ağız boşluğunu təmizləyərək tənəffüs yollarının keçiriciliyini bərpa etmək vacibdir. Komatoz vəziyyət zamanı isə ağız boşluğuna hava ötürən boru yerləşdirilir.

Dəm qazı zəhərlənmələri zamanı antidot kimi, üzə kip bağlanılmış maska vasitəsilə 100 faizli oksigen tətbiq olunur. Huşu itmiş xəstələrdə intubasiya aparılmalı və 100 faizli oksigenlə ağciyərlər süni ventilyasiya edilməlidir.

Əlavə müalicə üsulları kimi infuzion, vitamin, kəhrəba turşusu və simptomatik terapiya tətbiq edilir. Bundan başqa, həkim arterial hipotenziyanın və ürək ritminin dəyişmələrinin korreksiyasına, qıcolmaların aradan qaldırılmasına yönəlmiş terapiyanın aparılmasına hazır olmalıdır. Bir çox xəstələrə isə həkim nevropatoloqun məsləhəti tələb olunur.

Zəhərlənmələrə qarşı ilk profilaktik tədbir işlədilən qaz cihazlarının təyinatı üzrə istismar qaydalarının nəzərə alınmasıdır. Binaları isitmək üçün təhlükəsizlik standartlarına cavab verməyən sobalar və plitələrdən istifadə olunmamalıdır. Daşına bilən qaz plitələri yalnız küçə şəraitində istifadə oluna bilər. Yanacaqla işləyən elektrik generatorlarından qapalı məkanlarda istifadə etmək olmaz.

Qaz cihazları olan otaqlarda dəm qazının səviyyəsini müəyyən edən analizatorların quraşdırılması çox yaxşı olardı. Bu, qiyməti çox baha olmayan və etibarlı cihazlar dəm qazının təhlükəli konsentrasiyasını aşkar etdikdə uca səs siqnalı verir.

Ümumiyyətlə, təhlükəsizlik texnikasının çox da mürəkkəb olmayan qaydalarına riayət etməklə özünüzü və yaxınlarınızı bu ağır, bəzən də ölümcül zəhərlənmədən qoruya bilərsiniz".

## ARTERİAL TƏZYİQİN ÖLÇÜLMƏ QAYDASI



***Elə adi proseslər var ki, həkim və ya tibb işçisi olmayanlar da onu yerinə yetirməli olur. Məsələn, təzyiqin və ya qanda şəkərin ölçülməsi. İlk baxışda kiməsə çox adi və sadə görünən həmin prosedur zamanı bir sıra qaydalar var ki, əslində onlara əməl etmək lazımdır.***

Təzyiqin ölçülmə qaydası haqqında məlumat verən Neyrocərrahiyyə xəstəxanasının həkim-kardioloqu Nərgiz Məmmədova AZƏRTAC-ın müxbirinə deyib: "Arterial təzyiqin ölçülməsi xüsusi cihaz-sfiqmomanometr və ya tonometrlə aparılır. Təzyiqi ölçməzdən 1saat qabaq kofe və tünd çay qəbul etmək, siqaret çəkmək olmaz, yeməkdən yarım saat keçməlidir. Təzyiqi ölçməzdən 1saat əvvəl burun və göz damcısını çıxmaq şərtilə digər dərmanların qəbulu dayandırılmalıdır. Əsəbi halda təzyiqi ölçmək düzgün deyil, onu yalnız sakitləşəndən 5 dəqiqə sonra etmək lazımdır. Ölçülməzdən əvvəl rahat oturaq vəziyyət seçilir, vacib olduqda uzanıqlı və ayaqüstü vəziyyətdə də proseduru aparmaq olar. Tonometrin manjet hissəsi dirsəkdən 2 santimetr yuxarı olmaqla bazu nahiyəsinə ürək səviyyəsində bağlanılır. Manjeti çox sıx bağlamaq lazım deyil. Daha sonra fonendoskopun başcığı dirsək çuxuruna yerləşdirilir. Nəbz itənə qədər balonla manjetə hava doldurularaq bazu arteriyası sıxılır. Bundan sonra ventil açılaraq yavaş-yavaş manjetin içərisindəki hava ilk nəbz vurğusunu eşidənə qədər buraxılır. Həmin andakı şkaladakı göstərici sistolik təzyiqin, nəbzin itdiyi an isə diastolik təzyiqin göstəricisi olacaq".

Həkim-kardioloq daha sonra söyləyib: "Təkrar təzyiqölçmə proseduru 3-5 dəqiqədən sonra aparılır. Həmin proses zamanı kəskin hərəkət etmək və danışmaq olmaz. Arterial təzyiqi sağ qolda (solaxaylarda sol qolda) ölçmək düzgündür. Əgər şübhə yaranarsa, təzyiq hər iki qolda ölçülə bilər. Sağ və sol qollar arasındakı təzyiq fərqi 5-10 mm civə sütunu ola bilər. Bəzən olur ki, evdə ölçülən təzyiqlə həkimin ölçdüyü təzyiq arasında 10-20 mm civə sütunu fərq yaranır. Həkim qəbulunda həmin göstərici daha yüksək olur. Bunu "ağ xalat sindromu" adlandırırlar və o, əsasən stress fonunda meydana çıxır. Xüsusilə 30 yaşına qədər qadın və qeyri stabil sinir sistemi olanlar arasında həmin hala təsadüf edilir. Arterial təzyiqi, onun yüksəlməsinə hər şübhə olduqda nəzarət üçün gündə iki dəfə-səhər və axşam ölçmək məsləhətdir."

## TERMOMETR SINANDA...



***Ən çox narahatlıq doğuran məsələlərdən biri bədən hərarətinin ölçülməsi zamanı və ya ehtiyatsızlıq nəticəsində termometrin sınmasıdır. Həmin hal baş verdikdə nə etmək lazımdır?***

Həkim və mütəxəssislərin rəyinə əsasən həmin halla üzləşəndə nə etmək lazım olduğu barədə bir sıra vacib məsləhətləri nəzərinizə çatdırırıq.

Sınmış termometrin içindəki civə dərhal axır və kiçik kürəciklər şəklində ətrafa yuvarlanır. Civə buxarlanıb nəfəslə orqanizmə daxil olur və ciddi təhlükə yaradır. Otağın temperaturu yüksəldikcə civə daha tez buxarlanır. Ona görə də otağın temperaturunu mümkün qədər azaltmağa çalışmaq lazımdır. Evin bütün pəncərələri açılır, sərinkeş "soyuq" rejimə qoşulur, otaqda olan istilik sistemi söndürülür və həmin tədbirlər civənin buxarlanmasının intensivliyini azaldır. Civəni yığmaq üçün tozsoran və ya yaş əskidən istifadə etmək olmaz, bu məqsədlə "skoç" və ya plastrdan istifadə etmək daha yaxşıdır. Havada civənin konsentrasiyasını ölçmək və onun qalıqlarını xaric etmək üçün sanitar-epidemioloji xidmət mütəxəssisi çağırmaq lazımdır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 240